ISSN: 3104-4670
e-ISSN: 2789-6919

# ELM VƏ TƏHSİL TƏDQİQATLARI
# XIV RESPUBLIKA ELMİ KONFRANSI
# ELMİ TƏDQİQAT

Beynəlxalq Elmi Jurnalının

*XÜSUSİ BURAXILIŞI*

# FUNDAMENTALS OF SCIENCE AND EDUCATION
# XIV RESPUBLICAN SCIENTIFIC CONFERENCE

*SPECIAL ISSUE OF THE*

**SCIENTIFIC RESEARCH**

International Scientific Journal

**Bakı, Azərbaycan**
**12 iyun 2026**

# ELM VƏ TƏHSİL TƏDQİQATLARI
# XIV RESPUBLİKA ELMİ KONFRANSI
# ELMİ TƏDQİQAT

Beynəlxalq Elmi Jurnalının

*XÜSUSİ BURAXILIŞI*

---

https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

**FUNDAMENTALS OF SCIENCE AND EDUCATION**
**XIV RESPUBLICAN SCIENTIFIC CONFERENCE**

*SPECIAL ISSUE OF THE*

**SCIENTIFIC RESEARCH**

International Scientific Journal

**12 iyun 2026**

# International Indexing

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessaryto use reference whileusing the journal materials.
© tedqiqat.rek@aem.az
© info@aem.az

## TƏŞKİLAT KOMİTƏSİ

**Sədr**

**Assos. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Sədr müavinləri**

**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Qarabağ Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Sadıq QARAYEV,** ETN, Botanika İnstitutu / Azərbaycan

**Məsul katib**

**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti / Azərbaycan

**ÜZVLƏR**

**Prof. Dr. Vaqif ABBASOV**, ARETN Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Əziz SANCAR**, Çapel-Hill Şimali Karolina Universiteti / ABŞ
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya Tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Səyyarə İBADULLAYEVA**, ARETN Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Prof. Dr. Təranə HACIYEVA**, Bakı Mühəndislik Universiteti / Azərbaycan

**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Turhan ÇETİN**, Qazi Universiteti / Türkiyə
**Prof. Dr. Dünya BABANLI**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Leyla VƏZİROVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Əkbər AĞAYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Andrei VOLODIN**, Regina Universiteti / Kanada
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV,** Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan

**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**PhD Tomas SMEDLEY,** Cenevrə Kolleci, Pensilvaniya / ABŞ

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

### Deputy chairmen

**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Sadiq GARAYEV**, Institute of Botany of MSERA/ Azerbaijan

### Executive secretary

**Assoc. Prof. Dr. Zabita TEYMURLU,** Baku Engineering University / Azerbaijan

### MEMBERS

**Prof. Dr. Vagif ABBASOV,** Institute of Petrochemical Processes named after Academician Y.H.Mammadaliyev of MSERA / Azerbaijan
**Prof. Dr. Aziz SANJAR,** University of North Karolina at Chapel Hill / USA
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Maharram MAMMADLI,** Baku State University / Azerbaijan
**Prof. Dr. Garib MURSHUDOV,** Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Sayyara IBADULLAYEVA**, Institute of Botany of MSERA / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO,** First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Arzu SARDARLI,** First Nations University of Canada / Canada
**Prof. Dr. Nadir ILHAN,** Ahi Evran University / Turkey
**Prof. Dr. Jihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Jeyran MAHMUDOVA,** Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA,** Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Haji HASANOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS/ Azerbaijan
**Prof. Dr. Turhan CHETIN**, Gazi University / Turkey
**Prof. Dr. Dunya BABANLI**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Leyla VAZIROVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Akbar AGHAYEV**, Sumgayit Statet University / Azerbaijan

**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "Silk Road" International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Yagub BABAYEV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Andrei VOLODIN**, Regina University / Canada
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Yagut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Irada HUSEYNOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Konul HASANOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Urfan HASANOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elnara MEHBALIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan

**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Thomas SMEDLEY,** Geneva College in Beaver Falls, Pennsylvania / USA

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 9-12
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 9-12
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# HUMANİTAR VƏ SOSİAL ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

## Ekvivalentlik anlayışının formalaşması

**Faidə İsayeva**

***Açar sözlər:*** *xarici dil, leksik və qrammatik üslubiyyat, tərcümə, ekvivalent*
***Keywords:*** *foreign language, lexis and grammar, stylistics, translation, equivalent*

Tərcümə nəzəriyyəsində ekvivalentlik anlayışı mənbə dildəki mətnin semantik, üslubi və funksional komponentlərin hədəf dilinə optimal şəkildə ötürülməsi prinsipi ilə izah edilir. Tərcümə fəaliyyətində ekvivalentliyin təmin olunması yalnız dilin leksik və qrammatik xüsusiyyətləri ilə məhdudlaşmır, eyni zamanda, mədəni kontekst, semantik çevrilmələr və üslubi uyğunlaşdırma kimi amilləri də əhatə edir. Tərcümə nəzəriyyəçisi E.Nida ekvivalentliyi dinamik və formal ekvivalentlik kimi iki əsas kateqoriyaya bölərək göstərmişdir ki, *"formal ekvivalentlik mənbə mətnin strukturunu olduğu kimi qoruyub saxlamağa çalışırsa, dinamik ekvivalentlik onun funksional təsirini hədəf dildə bərpa etməyə yönəlir."*

---

Azərbaycan Dövlət Pedaqoji Universiteti, pedaqogika üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: faida.isayeva@mail.ru

Bununla belə, ekvivalentlik anlayışı, tərcümənin keyfiyyətini müəyyən edən əsas meyarlardan biri olmaqla yanaşı, eyni zamanda, dilçilik və kommunikasiya nəzəriyyələri çərçivəsində müxtəlif cür şərh olunmuşdur.

A.Vinay və J.Darbelnet tərcümə prosesində ekvivalentliyin ayrı-ayrı səviyyələrdə həyata keçirildiyini qeyd edərək göstərmişlər ki, *"tərcümə zamanı ekvivalentliyin qorunması üçün birbaşa və ya dolayı üsullar tətbiq edilə bilər, bu isə kontekstin spesifikliyindən və mənbə-hədəf dil arasındakı struktur fərqlərdən asılıdır."* Bu yanaşma ekvivalentliyin yalnız lüğəvi səviyyədə deyil, həm də sintaktik və praqmatik aspektlərdə nəzərdən keçirilməsinin vacibliyini vurğulayır.

Ekvivalentliyin növləri nəzəri və praktik aspektlərdə fərqli kateqoriyalara bölünür. Leksik ekvivalentlik, mənbə və hədəf dillərdə müəyyən anlayışların eyniyyət dərəcəsini müəyyənləşdirir. Bu ekvivalentlik növü, əsasən ümumi leksik vahidlər üçün tətbiq edilir. Məsələn, "apple" sözü Azərbaycan dilinə "alma" kimi tərcümə olunduqda ekvivalentlik təmin edilmiş olur. Bəzi hallarda tam leksik uyğunluq mümkün olmadıqda, kontekstə uyğun sinonimlər və ya təsviri ifadələrdən istifadə olunur.

Bundan əlavə, qrammatik ekvivalentlik isə mənbə və hədəf dillərin morfoloji və sintaktik quruluşları arasındakı fərqləri uyğunlaşdırmaq məqsədi daşıyır. Bu çərçivədə, ingilis dilindəki "He is reading a book" ifadəsi Azərbaycan dilinə "O kitab oxuyur" kimi çevrilir. Burada zaman formalarının uyğunlaşdırılması ekvivalentliyin qorunmasını təmin edir. Qrammatik ekvivalentliyin nəzəri əsasları ilə bağlı tərcüməşünas Y.Kade vurğulayır ki, "qrammatik ekvivalentlik yalnız morfoloji uyğunluq deyil, həm də cümlə strukturunun funksional paralelliyini nəzərə almalıdır." Eyni zamanda,

semantik ekvivalentlik mənbə mətnin semantik yükünün qorunmasına yönəlir və bəzən bu prosesdə sözlərin məcazi və ya kontekstual mənalarının uyğunlaşdırılması tələb olunur. Məsələn, ingilis dilində "It's raining cats and dogs" ifadəsi Azərbaycan dilinə "leysan yağır" kimi çevrilir. Burada literal tərcümə məna itkisinin qarşısını ala bilmədiyi üçün kontekstual uyğunlaşdırma tətbiq edilir.

Bundan başqa, üslubi ekvivalentlik bədii və emosional ifadələrin, həmçinin, mətnin estetik təsirinin qorunmasına yönəlmişdir. Bu tip ekvivalentlik xüsusilə bədii və publisistik mətnlərin tərcüməsində vacib rol oynayır. Məsələn, "ağ qızıl" ifadəsi pambıq mənasında işlədildikdə, bu metaforik konstruksiyanın qorunması üslubi ekvivalentlik prinsipinin tətbiqini tələb edir.

Funksional ekvivalentlik isə mənbə mətndəki anlayış və ifadələrin hədəf dilə uyğunlaşdırılması üçün istifadə edilir. Belə ki, ABŞ-də qeyd olunan "thanksgiving day" bayramı Azərbaycan dilinə "şükranlıq günü" kimi çevrilir. Bu cür ekvivalentlik formasında məqsəd, mənbə dilin mədəniyyətinə xas anlayışları hədəf auditoriya üçün anlaşıqlı formada təqdim etməkdir. Nəhayət, kontekstual ekvivalentlik və tərcümə problemləri tərcümə nəzəriyyəsində xüsusi əhəmiyyət daşıyan mövzulardan biridir. Kontekstual ekvivalentlik mənbə mətndəki ifadələrin yalnız leksik və sintaktik baxımdan deyil, həm də kontekstə uyğun şəkildə hədəf dilə çevrilməsini nəzərdə tutur. Tərcümə prosesində sözlər və ifadələr təkcə lüğəvi mənaya malik deyil, onlar mətn daxilində spesifik funksiyalara, üsluba və mədəni çalarlara sahib ola bilərlər. Bu səbəbdən, tərcümə zamanı ekvivalentliyi qorumaq üçün kontekstə əsaslanan yanaşmalar vacib rol oynayır.

Kontekstual ekvivalentlik konsepsiyası ilk dəfə tərcümə nəzəriyyəsində mətnin bütövlükdə mənasının qorunması baxımından müzakirə edilmişdir. J.P.Vinay və J.Darbelnet kontekstdə ekvivalentliyi təmin etməyin vacibliyini vurğulayaraq qeyd etmişlər ki, *"hər hansı bir ifadənin tərcüməsi yalnız sözlərə əsaslanmamalı, onun mətn daxilində daşıdığı ümumi mənaya uyğunlaşdırılmalıdır*." Tərcümə zamanı kontekstdən asılı olaraq eyni söz və ya ifadə müxtəlif formalarda çevrilə bilər. Məsələn, ingilis dilində "break the ice" ifadəsi məcazi mənaya malikdir və birbaşa tərcümə edildikdə "buzu qırmaq" kimi anlaşılır. Lakin bu ifadənin Azərbaycan dilindəki ekvivalenti "münasibətləri yumşaltmaq" və ya "söhbəti açmaq" kimi ola bilər. Burada kontekstual ekvivalentlik təmin olunmazsa, tərcümə yanlış və ya anlaşılmaz ola bilər.

Kontekstual ekvivalentliyin ən böyük problemlərindən biri çoxmənalı sözlərin tərcüməsidir. Müxtəlif dillərdə bir söz müxtəlif kontekstlərdə fərqli mənalar kəsb edə bilər. Məsələn, ingilis dilində "run" feilini göstərmək olar. Bu feil kontekstdən asılı olaraq çox müxtəlif mənalarda işlənə bilər: "He runs a company." - "O, bir şirkəti idarə edir." "The machine is running." - "Maşın işləyir." "She runs every morning." - "O, hər səhər qaçır." Bu nümunələrdən göründüyü kimi, eyni sözün müxtəlif kontekstdə fərqli mənaları ola bilər və bu, tərcümə zamanı nəzərə alınmalıdır.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 13-17
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 13-17
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Azərbaycanda davamlı inkişafın təmin olunmasında ekoloji təhsil problemləri

**Fidan Qafulova**

***Açar sözlər:*** *Azərbaycan, ekoloji təhsil, davamlı inkişaf, ətraf mühit, Tbilisi deklarasiyası*
***Keywords:*** *Azerbaijan, enviromental education, sustainable development, enviroment, Tbilisi declaration*

Davamlı inkişaf insan potensialına əsaslanan inkişafı özündə əks etdirir ki, bu da konsepsiyanı digər inkişaf konsepsiyalarından fərqləndirən əsas cəhət kimi onun gələcək nəsillərin maraqlarına cavab verən və uzun müddət öz davamlılığını saxlayan bir inkişaf olmasıdır. Davamlı inkişafın mərkəzində məhz insan amili dayanır ki, burada onun bilik bacarıqları mühüm rol oynayır. Belə ki, davamlı inkişafın gerçəkləşməsi bilavasitə insan potensialının varlığı ilə əlaqəlidir ki, insan amilini ön planda tutaraq təhsilin davamlı inkişafda rolu məhz insan potensialının ortaya qoyduğu bilik, bacarıq və yeniliklərlə ciddi əlaqə kəsb edir. Burda ekoloji təhsilin vacibliyi həm mövcud ətraf mühit problemlərinin həlli, həm də ekoloji təhlükəsizliyin həllində müasir çıxış yolları, bərpa olunan enerji vasitələrinin öyrənilməsi, araşdırılması və s. baxımından əhəmiyyətli rol oynayır. 1990-cı illərdə BMT-nin davamlı inkişafla bağlı irəli sürdüyü əsas ideyalardan biri də məhz davamlı inkişaf sahəsində ekoloji təhsil idi.

Bakı Dövlət Universiteti, doktorant, Bakı, Azərbaycan
E-poçt: fidan.qafulova@yahoo.com

BMT burada təhsilin rolunun vacibliyini xüsusi ilə ön plana çıxararaq davamlı inkişafa nail ola bilmək üçün qlobal problemlərin həllində təhsili əsas açarlardan biri kimi qəbul etmişdir. Müasir sivilizasiyanın əsas təhlükələrindən biri kimi hesab edilən qlobal iqlim dəyişikliklərinin səbəblərini araşdırmaq, onun aradan qaldırılmasını tədqiq etmək və təbiətə vurulan zərərlərin minimum həddə endirilməsi olduqca vacibdir. İqlim dəyişikliyi hər nə qədər qlobal problem olsa da, burda insanların fəaliyyəti, həyat tərzi təbiətə qarşı xeyirxah mövqedən yanaşması və lokal səviyyədə davranış mövqeyi bu prosesə təsir göstərə bilir. Buna görə də, qlobal iqlim dəyişikliyi ilə mübarizədə təhsilin xüsusi rolunu vurğulamaq lazımdır ki, buna görə də təhsil müəssisələrində xüsusi tədris proqramlarının işlənib hazırlanması, ekoloji məlumatlandırılmanın artırılması daha ciddi əhəmiyyət kəsb edir.

Ekoloji təhsilin əsas prinsipləri kimi isə əsas diqqət edilməli məsələlər aşağıdakı formada qruplaşdırılmışdır: 1.Bütün yaş qrupları üçün davamlı prosesin təşkil olunması; 2.Ekoloji təhsilin qlobal xarakter daşıması, lakin lokal səviyyədə tətbiqinin vacibliyi; 3.Fərdi və kollektiv məsuliyyət hissinin inkişafı; 4.Təbiət, texnologiya, iqtisadiyyat və mədəniyyət arasında qarşılıqlı əlaqələrin mənimsənilməsi; 5.İnkişaf prosesinin sosial ədalət və ekoloji tarazlığı qoruması kimi prinsiplərə sadiq qalınması.

Azərbaycan Respublikasının da tərəfdaş olduğu UNESCO-nun 2021-ci il hesabatına görə, ekoloji təhsil milli və beynəlxalq sahədə davamlı inkişaf hədəflərinə çatmaqda əsas rol oynayır. Skandinaviya ölkələri, xüsusi ilə İsveç və Norveç kimi ölkələr ekoloji təhsildə qabaqcıl nümunələrdir. Bu ölkələrin təhsil sistemlərində ekoloji bilik və praktik bacarıqlar sistematik şəkildə dərs proqramına inteqrasiya edilməsinə nail olunub.

1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra ekoloji təhlükəsizlik, təbii ehtiyatların qorunması və ekoloji təhsil Azərbaycanda da davamlı inkişaf strategiyasının əsas prioritet istiqamətlərindən birinə çevrilmişdir. Burada əsas məqsəd cəmiyyətin bütün təbəqələrində ətraf mühit şüurunu artırmaq, ekoloji mədəniyyəti formalaşdırmaq və təbiətin mühafizəsində fəal iştirak edən fərdlər yetişdirməkdir. Əsas hədəf vətəndaşların ətraf mühitin qorunması üzrə bilik, bacarıq və vərdişlərinin artırılması, resurslara qənaət edilməsinin formalaşdırılması və ekoloji məsuliyyət davranışının yaradılmasıdır. Ekoloji təhsil "Azərbaycan Respublikasında Təhsil Sisteminin İnkişafı Strategiyası", "Ətraf Mühitin Mühafizəsi üzrə Milli Fəaliyyət Planı", "2030-cu il davamlı inkişaf məqsədləri" çərçivəsində həyata keçirilir.

| **Azərbaycanda ekoloji təhsilin mərhələləri** | **Ekoloji fəaliyyət istiqamətləri** |
|---|---|
| Məktəbəqədər təhsil | Sadə ekoloji oyunlar, təbiətə sevgi aşılanması, ağacəkmə kimi fəaliyyətlər;<br>Uşaqların təbiətə diqqətli və məsuliyyətli yanaşmasının erkən formalaşdırılması. |
| Ümumtəhsil məktəbləri | "Həyat bilgisi", "Biologiya", "Coğrafiya", "İnsan və cəmiyyət" kimi fənlərdə ekoloji mövzular;<br>Ekoloji klublar;<br>Tullantıların ayrılması təlimləri;<br>Məktəb-bağçılıq, ağacəkmə layihələri;<br>Ekoturlar. |

| | |
|---|---|
| Ali təhsil | “Ekologiya mühəndisliyi”, “Ətraf mühitin mühafizəsi”, “Meşəçilik”, “Torpaqşünaslıq”, “Yerşunaslıq” elmləri;<br>Davamlı inkişaf üzrə magistr proqramları. |
| Qeyri-formal və ömürboyu ekoloji təhsil | QHT-lər tərəfindən ekoloji layihələr;<br>Media və ictimai kampaniyalar;<br>Bələdiyyələrdə ekoloji maarifləndirmə;<br>Ekoloji turizm layihələri. |

(Cədvəl müəllif tərəfindən hazırlanmışdır).

Azərbaycan Respublikasında davamlı inkişaf sahəsində ekoloji təhsil istiqamətində müəyyən perspektivli addımlar atılmışdır. UNICEF və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin dəstəyi əsasında 2018-ci il 8-19 oktyabr tarixlərində Bakı və digər şəhərlərdə “Dayanıqlı inkişaf üçün ekoloji təhsil” layihəsi həyata keçirilmişdir. Layihə “Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya”ya uyğunlaşdırılmışdır. Cəmiyyətin diqqətini ekoloji problemlərə cəlb etmək məqsədilə, fəal təbliğat və kommunikasiya kampaniyası keçirilmiş, həmçinin, məktəb şagirdləri arasında havanın çirklənməsi, iqlim dəyişmələri, təbii ehtiyatlardan qeyri-səmərəli istifadə, quraqlıqların artması, meşələrin qırılması, içməli suların azalması və s. problemlərin ən yaxşı filmləşdirilməsi əsasında sənədli film müsabiqəsi elan edilmişdir. Həmçinin, şagirdləri ekoloji layihələrə cəlb etmək məqsədi ilə biomüxtəlifliyin qorunması sahəsində qoruqlara ekoturların keçirilməsi, “bir şagird-bir ağac” aksiyaları və s. təşkil olunmuşdur.

Ekoloji təhsilin effektivliyini artırmaq üçün aşağıdakı tövsiyyələri xüsusi ilə nəzərə almaq vacibdir: 1.Tədris proqramlarının yenilənməsi və onların qlobal standartlara uyğunlaşdırılaraq dərs planlarının tərtib edilməsi; 2.Bu sahədə peşəkar müəllim hazırlığını təmin etmək məqsədi ilə peşəkar təlimlər təşkil etmək; 3.Təcrübə mübadiləsi və qrant layihələrdə iştirak etməklə beynəlxalq əməkdaşlığın həyata keçirilməsi; 4.Ekoloji layihələr, ekskursiyalar və laboratoriyalar vasitəsi ilə şagird və tələbələrin iştirakını təmin etməklə onların bu prosesdə iştirakını formalaşdırmaq; 5.Ekoloji təhsil proqramlarının nəticələrini müntəzəm olaraq izləməklə monitorinq və qiymətləndirilmənin aparılmasına nail olmaq.

Azərbaycanda da ekoloji təhsil sahəsində mühüm addımlar atılmış, normativ baza formalaşdırılaraq təhsil və maarifləndirmə proqramları genişləndirilmişdir. Bununla belə, davamlı inkişafın tələblərinə uyğun olaraq ekoloji təhsilin daha effektiv olması üçün metodoloji yanaşmaların təkmilləşdirilməsi, müəllim hazırlığının gücləndirilməsi və ictimai şüurun artırılması vacib olaraq qalmaqdadır. “Qlobal düşün, lokal hərəkət et” - bu ifadənin ilk müəllifi olan tarixçi alim Rene Duboisin sözlərini şagirdlərin nəzərinə çatdıraraq onlarda belə bir fikir oyatmaq lazımdır ki, ekoloji problemlər həqiqətən də qlobal problemlərdir, lakin onların həlli üçün ən effektiv yol fərd səviyyəsindən, lokal ərazilərdən başlamaq lazımdır.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 18-20
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 18-20
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Kənd təsərrüfatında investisiya risklərinin idarə edilməsi

**Arzu Şabanova**

***Açar sözlər:*** *investisiya, kənd təsərrüfatı, risk, risklərin növləri, idarəetmə*
***Keywords:*** *investment, agriculture, risk, types of risks, management*

Müasir iqtisadi şəraitdə kənd təsərrüfatının investisiya cəlbediciliyinin artırılması və investisiya risklərinin effektiv idarə olunması aqrar sektorun dayanıqlı inkişafının əsas şərtlərindən biri hesab olunur. Aqrar sahə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində, regionların sosial-iqtisadi inkişafında, məşğulluğun artırılmasında mühüm rol oynayır. Bununla yanaşı, kənd təsərrüfatı digər iqtisadi sahələrlə müqayisədə daha yüksək risk səviyyəsinə malikdir. Bu risklər əsasən təbii-iqlim şəraiti, bazar qiymətlərinin dəyişkənliyi, maliyyə resurslarının məhdudluğu, mövsümilik, siyasi və institusional amillərlə bağlıdır. Məhz buna görə də kənd təsərrüfatına investisiya edilərkən risklərin idarə edilməsi xüsusi əhəmiyyət kəsb edir. İnvestisiya risklərinin düzgün qiymətləndirilməsi investorlara kapital qoyuluşlarının səmərəliliyini müəyyən etməyə, gələcək mümkün itkiləri azaltmağa və daha rasional investisiya qərarları qəbul etməyə imkan verir.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, İqtisadiyyat İnstitutu, doktorant, Bakı, Azərbaycan
E-poçt: sh.arzu@yahoo.com

Aqrar sahədə investisiya fəaliyyətinin effektivliyi yalnız maliyyə nəticələri ilə deyil, həm də sosial sabitlik, kənd əhalisinin rifahı və regional inkişaf göstəriciləri ilə sıx bağlıdır. Riskin təhlilində iqtisadi və siyasi risk bir-birindən ayrılmamalı, əksinə, ölkənin riskinin iqtisadi və siyasi proseslərin təsiri ilə əmələ gəldiyi əsas götürülərək dəyərləndirilməlidir.

Kənd təsərrüfatının investisiya cəlbediciliyi investorların bu sahəyə kapital qoyuluşu etməsinin məqsədəuyğunluğunu müəyyən edən iqtisadi, sosial, maliyyə, ekoloji və institusional şəraitlərin məcmusudur. Kənd təsərrüfatına investisiya qoyuluşları zamanı bir neçə əsas göstərici qiymətləndirilir: sahənin regional iqtisadiyyatda rolu və inkişaf perspektivləri, istehsalın səmərəlilik səviyyəsi, investisiya risklərinin həcmi, resurs potensialının istifadə səviyyəsi, maliyyə dayanıqlılığı, dövlət dəstəyi, institusional mühit və s.

Kənd təsərrüfatında investisiya riskləri müxtəlif istiqamətlər üzrə formalaşır ki, bu risklərin sistemli şəkildə təsnifləşdirilməsi onların idarə edilməsini asanlaşdırır: təbiət hadisələri ilə əlaqəli olan risklər – quraqlıq, dolu, sel, şaxta, güclü küləklər və digər təbii hadisələr məhsuldarlığın azalmasına və investisiya gəlirlərinin aşağı düşməsinə səbəb olur; qiymət riskləri – məhsul bolluğu və ya bazar tələbinin azalması qiymətlərin enməsinə və nəticə etibarı ilə investorların gəlirlərinin azalmasına, layihənin iqtisadi səmərəliliyinin aşağı düşməsinə səbəb ola bilər; maliyyə riskləri – kredit faizlərinin yüksəlməsi, maliyyə resurslarına çıxışın məhdudluğu və valyuta dəyişiklikləri səviyyəsini artırır; texnoloji risklər – köhnə texnologiyaların tətbiqi, texniki təminatın zəif olması və innovativ metodların çatışmazlığı investisiya qoyuluşlarının geri dönüş müddətini uzadır; sosial və institusional risklər – regionlarda sosial gərginlik, korrupsiya, idarəetmədə qeyri-şəffaflıq və hüquqi problemlər investorların fəaliyyətinə mənfi təsir göstərir.

Aqrar sektorda risklərin minimuma endirilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsi zəruridir. Risklərin idarə olunması yalnız maliyyə tədbirləri ilə məhdudlaşmır, eyni zamanda, təşkilati və institusional mexanizmləri də əhatə edir. İlk növbədə, kənd təsərrüfatında texnoloji modernləşmə sürətləndirilməlidir. Enerjiyə və resursa qənaət edən texnologiyaların tətbiqi istehsal xərclərini azaltmağa və məhsuldarlığı artırmağa imkan verir. Bundan əlavə, aqrar istehsalın elmi əsaslandırılmış regional ixtisaslaşması vacibdir. Müxtəlif təbii-iqtisadi zonalara uyğun məhsul istehsalı risklərin azalmasına və resurslardan daha səmərəli istifadəyə şərait yaradır.

Risklərin idarə edilməsi üçün ən vacib məsələlərdən biri məlumatların keyfiyyətidir. Etibarlı informasiya investisiya qərarlarının düzgün qəbul edilməsini təmin edir və qeyri-müəyyənliyi azaldır.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 21-25
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 21-25
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Azərbaycan coğrafi əfsanələrinin UNESCO-nun qeyri-maddi mədəni irs kontekstində öyrənilməsi

**Züleyxa Zeynalova**

***Açar sözlər:*** *əfsanə, folklor, kollektiv yaddaş, milli kimlik, UNESCO*
***Keywords:*** *legend, folklore, collective memory, national identity, UNESCO*

Azərbaycanın zəngin folklor xəzinəsində xüsusi yer tutan coğrafi əfsanələr sadəcə bir məkanın adı ilə bağlı nağılvari izah deyil, xalqın yaddaşında qorunub saxlanmış tarixi xatirələrin, mifoloji təxəyyülün və milli kimliyin bədii ifadəsidir. Hər dağın zirvəsi, hər çayın axını, hər gölün dərinliyi bu əfsanələr vasitəsilə danışmağa başlayır, daş və suyun yaddaşı sözə çevrilir. Onlarda həm qəhrəmanlıq izləri, həm məğlubiyyət acısı, həm də müqəddəs inamların gücü birləşir. Bu əfsanələr oxucunu zamanın sərhədlərindən keçirərək tarixi hadisələri yalnız fakt kimi deyil, həm də poetik və mənəvi simvollar şəklində yaşadır. Burada miflə tarix birləşir, məkan isə kollektiv yaddaşın canlı nişanəsinə çevrilir. Azərbaycan folklorunun bu zəngin qatını UNESCO-nun qeyri-maddi mədəni irs kontekstində öyrənmək isə həm milli dəyərlərin qorunması, həm də beynəlxalq mədəniyyət xəritəsində daha aydın görünməsini təmin edir. Coğrafi əfsanələr folklorun ən qədim və ən mühüm qatlarından biridir.

Azərbaycan Universiteti, doktorant, Bakı, Azərbaycan
E-poçt: zuleykha.zeynalova@rambler.ru

Onlar yalnız məkan adlarının izahını verməklə məhdudlaşmır, həm də xalqın dünyagörüşünü, tarixi yaddaşını və mədəni kodlarını özündə saxlayır. Folklorşünaslıqda bu janr, əsasən, müəyyən bir coğrafi obyektin – dağ, çay, göl, mağara və ya yaşayış məntəqəsinin adı ilə bağlı izahlara yönəlmiş mətnlər kimi müəyyənləşdirilir. Abbasov yazır ki, əfsanələrin bu növü yalnız təbii və ya tarixi hadisənin poetik şərhi deyil, həm də xalqın həmin hadisəyə verdiyi mənəvi dəyərin qorunmasıdır (Abbasov, 2002, s. 248). Eliade bu fenomeni "məkanın sakrallaşdırılması" ilə əlaqələndirir və qeyd edir ki, xalq üçün müəyyən coğrafi obyekt sadəcə fiziki mühit deyil, həm də müqəddəs yaddaş məkanıdır (Eliade,1963 s. 232).

Azərbaycan əfsanələrində bu mexanizm çox aydın görünür: hər bir toponim xalqın tarixində müəyyən bir hadisəni və ya şəxsiyyəti xatırladır və həmin yaddaş sonrakı nəsillərə poetik formada ötürülür. Hacıyev qeyd edir ki, toponimik əfsanələr yalnız məkan adlarının mənşəyini açıqlamır, həm də həmin məkanların milli kimlik kontekstində mənalandırılmasına xidmət edir (Hacıyev, 2015, s. 276). Bu, onların milli-mədəni özünüdərk üçün əvəzsiz mənbə olduğunu göstərir. Assmannın "mədəni yaddaş" konsepsiyası baxımından coğrafi əfsanələr yalnız folklor nümunəsi deyil, həm də milli identikliyin mədəni kodlarıdır (Assmann, 2011, s, 318). Onların vasitəsilə xalq öz tarixini yalnız faktoloji səviyyədə deyil, həm də poetik-mifik semantika ilə dərk edir.

*UNESCO-nun qeyri-maddi mədəni irs siyasəti və əfsanələr:* UNESCO-nun 2003-cü ildə qəbul etdiyi "Qeyri-maddi mədəni irsin qorunması haqqında Konvensiya"da (Convention for the Safeguarding of the Intangible Cultural Heritage) qeyri-maddi irs anlayışı ənənələr, şifahi ədəbiyyat nümunələri, ifaçılıq sənəti, ictimai adət-ənənələr, mərasimlər, təbiət və kainatla bağlı biliklər və bacarıqlar, həmçinin, xalq sənətkarlığı ilə bağlı

təcrübələr kimi izah olunur. Bu sənəd qeyri-maddi irsin qorunması üçün üç əsas prinsip müəyyənləşdirir: birincisi, xalqın özünün yaratdığı və nəsillərarası ötürdüyü dəyərlərin tanınması; ikincisi, həmin irsin yerli, regional və milli kimliklərin formalaşmasında rolu; üçüncüsü isə bu irsin qlobal səviyyədə bəşəriyyətin ortaq mədəni sərvəti kimi təqdim olunması (UNESCO, 2003, s. 124). Assmannın "mədəni yaddaş" konsepsiyası ilə müqayisədə, UNESCO-nun yanaşması göstərir ki, yaddaş yalnız milli kimlik çərçivəsində deyil, həm də beynəlxalq səviyyədə dəyər kimi tanınmalıdır.

*Azərbaycan nümunələrinin UNESCO siyahısına daxil edilməsi təcrübəsi:* Azərbaycan bu konvensiyaya qoşulduqdan sonra bir sıra mədəni irs nümunələri UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bunlara aşıq sənəti, muğam, xalçaçılıq sənəti, lavaş bişirmə ənənəsi, kamança ifaçılığı, Novruz bayramı və başqaları daxildir (UNESCO, 2003, s. 37). Bu fakt göstərir ki, Azərbaycanın zəngin folklor və mədəni ənənələri yalnız yerli səviyyədə deyil, qlobal mədəni irsin bir hissəsi kimi dəyərləndirilir. Xüsusilə muğam və aşıq sənətinin UNESCO tərəfindən tanınması göstərir ki, şifahi ənənələr və folklor nümunələri qeyri-maddi mədəni irsin ən mühüm daşıyıcılarıdır. Hüseynli də qeyd edir ki, folklor janrlarının UNESCO səviyyəsində təqdimatı milli kimliyin beynəlxalq miqyasda tanıdılması üçün mühüm imkan yaradır (Hüseynli, 2018, s. 220).

*Coğrafi əfsanələrin bu kontekstdə öyrənilməsinin zəruriliyi:* Bütün bu təcrübə fonunda Azərbaycan coğrafi əfsanələrinin UNESCO kontekstində öyrənilməsi və təqdim olunması mühüm vəzifə kimi qarşıda dayanır. Çünki əfsanələr yalnız xalq yaradıcılığı nümunəsi deyil, həm də kollektiv yaddaşın, tarixi şüurun və milli kimliyin poetik daşıyıcısıdır. Onlarda xalqın coğrafi məkanla bağlı dünyagörüşü, təbiətə münasibəti, dini-

mifoloji təsəvvürləri və tarixi xatirələri qorunur. Nora-nın “yaddaş məkanları” konsepsiyasına görə, belə mətnlər bir toplumun kimlik yaddaşını formalaşdıran ən mühüm elementlərdir. Əfsanələrin UNESCO çərçivəsində təqdimatı Azərbaycan folklorunun daha geniş beynəlxalq tanıdılması, milli-mədəni dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından əhəmiyyətli olardı. Nəticə etibarilə, UNESCO-nun qeyri-maddi mədəni irs siyasətinin prinsipləri göstərir ki, Azərbaycan coğrafi əfsanələrinin bu kontekstdə öyrənilməsi yalnız folklorşünaslıq baxımından deyil, həm də mədəni diplomatiya və qlobal mədəni irsin zənginləşdirilməsi baxımından vacibdir.

*Azərbaycan coğrafi əfsanələrinin UNESCO çərçivəsində təqdim imkanları:* UNESCO-nun qeyri-maddi mədəni irs yanaşması şifahi ənənələri, mədəni təcrübələri və bilik sistemlərini icma mərkəzli perspektivlə dəyərləndirdiyindən, coğrafi əfsanələr beynəlxalq təqdimat və mədəni diplomatiya üçün əlverişli platformaya çevrilir; çünki bu mətnlər həm kollektiv yaddaşı daşıyır, həm də məkanın mənəvi xəritəsini bəşəri oxucular üçün anlaşılan poetik dillə nümayiş etdirir (UNESCO, 2003, s. 37; Assmann, 2011, s. 318). Əfsanələrin transliterasiya və tərcümə ilə çoxdilli nəşri, kuratorlu tematik toplular, səyyar sərgilər, hekayəçilik (storytelling) proqramları, eləcə də diasporaya yönəlmiş “yaddaş görüşləri” yumşaq güc resursu kimi çıxış edərək Azərbaycanın mədəni imicini gücləndirir; məkan adının arxasındakı hekayə beynəlxalq auditoriya üçün mədəni identiklik göstəricisinə çevrilir. Bu çərçivədə əfsanə–məkan–icma üçbucağı üzrə hazırlanmış qısa video-esse, podkast seriyası və interaktiv xəritələr UNESCO-nun irs kommunikasiyası prinsiplərinə uyğun, əlçatan və fəal öyrənmə modelləri yaradır (UNESCO, 2003, s. 124). Beləcə, coğrafi əfsanələrə münasibət təkcə romantik “keçmiş hekayələri” kimi deyil, mədəni diplomatiya aləti, təhsil resursu və icma əsaslı irs siyasətinin

strateji komponenti kimi qurulduqda, onların beynəlxalq tanıtımı ilə yanaşı, yerli yaşayış gücü də artır; məkanın adı mətndə, mətinin yaddaşı isə icmanın gündəlik praktikasında yaşamağa davam edir. Beləliklə, coğrafi əfsanələr folklor janrı olmaqla yanaşı, həm də milli kimliyin bədii pasportu və UNESCO kontekstində bəşəri irsin dəyərli parçasıdır.

**Ədəbiyyat**

1. Abbasov, H. (2002). *Azərbaycan xalq ədəbiyyatında əfsanə janrı*. Elm.
2. Assmann, J. (2011). *Cultural Memory and Early Civilization*. Cambridge University Press.
3. Eliade, M. (1963). *Myth and Reality*. Harper & Row.
4. Hacıyev, T. (2015). *Azərbaycan folklorunda toponimlərin semantikası*. Nurlan.
5. Hüseynli, M. (2018). *Azərbaycan coğrafi əfsanələrinin poetik xüsusiyyətləri*. Elm və Təhsil.
6. UNESCO. (2003). *Convention for the Safeguarding of the Intangible Cultural Heritage*. UNESCO.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 26-29
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 26-29
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Xarici dilin tədrisində interaktiv təlim texnologiyalarının rolu

**Ləman Əsgərli**

***Açar sözlər:*** *xarici dil tədrisi, interaktiv təlim, kommunikativ yanaşma, rəqəmsal texnologiyalar, blended learning, gamifikasiya, tələbə mərkəzli təhsil, innovativ metodlar*
***Keywords:*** *foreign language teaching, interactive learning, communicative approach, digital technologies, blended learning, gamification, student-centered education, innovative methods*

Müasir dövrdə qloballaşma, informasiya-kommunikasiya texnologiyalarının inkişafı və beynəlxalq əlaqələrin genişlənməsi xarici dil öyrənilməsini təhsil sisteminin əsas prioritetlərindən birinə çevirmişdir. Ənənəvi tədris metodlarının kommunikativ bacarıqların inkişafında məhdud imkanlara malik olması interaktiv təlim texnologiyalarına marağı artırmışdır. Tezisdə xarici dil tədrisində interaktiv texnologiyaların rolu, onların pedaqoji əsasları, üstünlükləri və tətbiq istiqamətləri geniş şəkildə təhlil edilir. Eyni zamanda, kommunikativ dil tədrisi, tapşırıq əsaslı öyrənmə, blended learning, gamifikasiya və rəqəmsal platformaların xarici dil öyrənməsinə təsiri araşdırılır.

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: lamanasgarli01@gmail.com

Ənənəvi dil tədrisi metodları əsasən qrammatika və tərcüməyə üstünlük verir, müəllim mərkəzli yanaşma üzərində qurulur və tələbələrin kommunikativ bacarıqlarını tam şəkildə inkişaf etdirməkdə çətinlik çəkir. Müasir dövrdə isə təhsil prosesində tələbənin aktiv iştirakı, əməkdaşlıq, real kommunikasiya mühiti və texnologiyaların tətbiqi ön plana çıxmışdır. Bu kontekstdə interaktiv təlim texnologiyaları xarici dil tədrisinin effektivliyini artıran əsas vasitələrdən biri hesab olunur.

İnteraktiv təlim texnologiyaları tələbələrin yalnız nəzəri bilik əldə etməsini deyil, həm də dilin praktik istifadəsini təmin edir. Belə texnologiyalar öyrənənlərin danışıq, dinləmə, yazı və oxu bacarıqlarını kompleks şəkildə inkişaf etdirir, onların dərsə motivasiyasını artırır və tənqidi düşünmə bacarıqlarını formalaşdırır.

Apardığımız araşdırma göstərir ki, interaktiv təlim texnologiyaları xarici dil tədrisinin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Müasir dövrdə ənənəvi müəllim mərkəzli yanaşmalar tələbələrin kommunikativ bacarıqlarını tam şəkildə inkişaf etdirmək üçün kifayət etmir. İnteraktiv metodlar isə tələbələrin aktiv iştirakını təmin etməklə dili praktik şəkildə mənimsəmələrinə şərait yaradır. Kommunikativ Dil Tədrisi (CLT), Tapşırıq Əsaslı Öyrənmə (TBL), blended learning, gamifikasiya və rəqəmsal platformalar tələbələrin motivasiyasını artırır, onların danışıq və dinləmə bacarıqlarını inkişaf etdirir və müstəqil öyrənmə qabiliyyətlərini gücləndirir. İnteraktiv texnologiyalar vasitəsilə yaradılan əməkdaşlıq mühiti tələbələrin sosial bacarıqlarını və tənqidi düşünmə qabiliyyətlərini də inkişaf etdirir. İnteraktiv təlim texnologiyalarının növləri aşağıdakılardır:

*Kommunikativ təlim texnologiyaları.* Kommunikativ yanaşma tələbələrin dili real həyat situasiyalarında istifadə etməsinə şərait

yaradır. Dialoqlar, debatlar, təqdimatlar və rollu oyunlar tələbələrin danışıq bacarıqlarını inkişaf etdirir. Bu metodlar tələbələr arasında əməkdaşlıq mühiti yaradır və onların dil baryerini aradan qaldırmağa kömək edir. Kommunikativ yanaşmanın əsas üstünlüyü tələbələrin dili yalnız qrammatik struktur kimi deyil, canlı ünsiyyət vasitəsi kimi mənimsəməsidir. Bu yanaşma tələbələrin öz fikirlərini sərbəst ifadə etməsinə imkan verir.

*Rəqəmsal və multimedia texnologiyaları.* İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı xarici dil tədrisində yeni imkanlar yaratmışdır. Multimedia resursları, interaktiv lövhələr, mobil tətbiqlər və onlayn platformalar dil öyrənməsini daha maraqlı və effektiv edir. YouTube videoları, podkastlar, virtual siniflər və interaktiv testlər tələbələrin dinləmə və anlama bacarıqlarını inkişaf etdirir. Bundan əlavə, süni intellekt əsaslı tətbiqlər fərdiləşdirilmiş tədris imkanı yaradır.

*Blended Learning.* Blended learning ənənəvi sinif dərsləri ilə onlayn tədrisin birləşdirilməsidir. Bu model tələbələrə həm müəllimlə birbaşa ünsiyyət, həm də müstəqil öyrənmə imkanları yaradır. Bu yanaşma tələbələrin fərdi xüsusiyyətlərini nəzərə almağa, təlim prosesini çevik şəkildə təşkil etməyə və fərdiləşdirilmiş öyrənmə mühiti yaratmağa imkan verir.

*Gamifikasiya.* Gamifikasiya oyun elementlərinin tədris prosesinə tətbiq edilməsidir. Bal toplama, yarışma, mükafatlandırma və səviyyə sistemi tələbələrin motivasiyasını artırır. Xarici dil tədrisində Kahoot, Quizizz və Duolingo kimi platformaların istifadəsi tələbələrin dərsə marağını yüksəldir və öyrənmə prosesini əyləncəli edir. Gamifikasiya xüsusilə aşağı yaş qruplarında yüksək effektivlik göstərir. Tədqiqatımız göstərir ki, texnologiyanın tədris prosesinə inteqrasiyası yalnız texniki yenilik deyil, həm də pedaqoji transformasiyadır. Müasir

təhsil sistemi artıq biliklərin sadəcə ötürülməsinə deyil, onların praktik tətbiqinə və kommunikativ istifadəsinə yönəlmişdir. Bu baxımdan interaktiv təlim texnologiyaları xarici dil öyrənmə prosesini daha effektiv, çevik və tələbə yönümlü edir.

Süni intellekt, virtual reallıq (VR), artırılmış reallıq (AR) və chatbot texnologiyaları gələcəkdə xarici dil tədrisinin əsas istiqamətlərindən biri olacaqdır. Süni intellekt əsaslı sistemlər tələbələrin səhvlərini avtomatik analiz edir və fərdi təlim planları hazırlayır. Virtual reallıq texnologiyaları tələbələrə real dil mühitinə yaxın şərait yaradır və onların praktik danışıq bacarıqlarını inkişaf etdirir. Gələcək perspektivdə süni intellekt, virtual reallıq və artırılmış reallıq texnologiyalarının xarici dil tədrisində daha geniş tətbiqi gözlənilir. Bu texnologiyalar fərdiləşdirilmiş öyrənmə mühitinin yaradılmasına və tələbələrin real kommunikasiya şəraitinə yaxın təcrübə qazanmasına imkan verəcəkdir.

Nəticə etibarilə, xarici dil tədrisində ən effektiv yanaşma ənənəvi metodların strukturlaşdırılmış xüsusiyyətlərini interaktiv və innovativ texnologiyaların üstünlükləri ilə birləşdirən hibrid model hesab edilə bilər. Belə yanaşma tələbələrə həm möhkəm nəzəri baza, həm də praktik kommunikasiya bacarıqları qazandıraraq onların qlobal mühitdə uğurlu fəaliyyətinə şərait yaradır.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 30-34
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 30-34
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Musiqi menecmentin idarəetmə modelləri və onların tətbiqi problemləri

**Yunus Hacızadə**

***Açar sözlər:*** *musiqi menecment, idarəetmə modelləri, problemlər, mədəniyyət, rəqəmsal*
***Keywords:*** *music management, management models, problems, culture, digital*

Müasir dövrdə mədəniyyət sənayesi cəmiyyətin sosial, iqtisadi və ideoloji inkişafında mühüm rol oynayan strateji sahələrdən biri kimi çıxış edir. Bu sahənin ən dinamik istiqamətlərindən biri olan musiqi sənayesi isə təkcə yaradıcılıq fəaliyyəti ilə deyil, eyni zamanda, kompleks idarəetmə mexanizmləri ilə də səciyyələnir. Musiqi məhsullarının yaradılması, təşkili, təqdimatı və auditoriyaya çatdırılması prosesləri artıq yalnız sənətkarın fərdi fəaliyyəti ilə məhdudlaşmır, bu proseslər sistemli və peşəkar menecment yanaşması tələb edir. Bu baxımdan musiqili menecment mədəniyyət sahəsində xüsusi əhəmiyyətə malik idarəetmə istiqaməti kimi formalaşmışdır.

Musiqili menecment anlayışı musiqi layihələrinin planlaşdırılması, təşkili, maliyyələşdirilməsi, marketinqi və ümumilikdə idarə olunmasını özündə birləşdirən çoxşaxəli bir sistemdir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: yunishacizade2002@gmail.com

Bu sistem həm yaradıcılıq prosesinin səmərəli təşkilinə, həm də musiqi məhsulunun kommersiya və sosial dəyərinin artırılmasına xidmət edir. Qloballaşma və rəqəmsallaşma proseslərinin sürətlənməsi musiqi sənayesində idarəetmə modellərinin daha çevik, innovativ və rəqabətqabiliyyətli olmasını zəruri etmişdir. Bununla yanaşı, müxtəlif ölkələrin təcrübəsi göstərir ki, musiqili menecment sahəsində vahid və universal idarəetmə modeli mövcud deyil. Əksinə, bu sahədə mərkəzləşdirilmiş, desentralizasiya olunmuş və layihə əsaslı kimi fərqli idarəetmə modelləri tətbiq olunur. Hər bir modelin öz üstünlükləri ilə yanaşı, müəyyən çatışmazlıqları da vardır və onların effektivliyi mövcud sosial-iqtisadi və mədəni mühitdən asılı olaraq dəyişir.

Azərbaycan mədəniyyət sistemində də musiqili menecmentin inkişafı son illərdə xüsusi aktuallıq qazanmışdır. Lakin bu sahədə kadr potensialının məhdudluğu, idarəetmə təcrübəsinin yetərsizliyi, maliyyə resurslarının qeyri-kafiliyi və rəqəmsal transformasiyaya uyğunlaşma problemləri kimi bir sıra çətinliklər qalmaqdadır. Bu səbəbdən musiqili menecmentin idarəetmə modellərinin elmi şəkildə araşdırılması və onların tətbiqi problemlərinin təhlili mühüm aktuallıq kəsb edir.

Günümüzdə mədəniyyət sənayesi cəmiyyətin ictimai, iqtisadi və ideoloji tərəqqisini şərtləndirən həlledici sektorlardan biri hesab olunur. Bu sənayenin ən çevik qolu olan musiqi sektoru isə öz növbəsində sadəcə bədii yaradıcılıq mühiti deyil, həm də mürəkkəb idarəçilik sistemləri ilə seçilən bir sahədir. Artıq musiqi nümunələrinin ərsəyə gəlməsi, sistemləşdirilməsi və kütlələrə çatdırılması fərdi sənətkar fəaliyyətinin hüdudlarını aşaraq, peşəkar menecment yanaşmasını qaçılmaz edir. Bu müstəvidə musiqi menecmenti mədəniyyət sahəsinin xüsusi və vazkeçilməz idarəetmə qolu kimi formalaşmışdır.

Musiqi idarəçiliyi anlayışı yaradıcılıq layihələrinin dizayn edilməsi, təşkili, büdcə planlaması, təşviqat strategiyaları və ümumi koordinasiyasını əhatə edən çoxfunksiyalı bir mexanizmdir. Bu struktur həm sənət nümunəsinin keyfiyyətli istehsalına, həm də onun bazarda kommersiya və sosial nüfuzunun yüksəlməsinə xidmət edir. Qlobal inteqrasiya və rəqəmsal inqilab dövrü musiqi biznesində tətbiq edilən metodların daha innovativ, çevik və rəqabətə davamlı olmasını bir zərurətə çevirmişdir. Beynəlxalq təcrübənin təhlili sübut edir ki, musiqi idarəçiliyində hər kəs üçün keçərli olan vahid bir şablon mövcud deyil. Əksinə, bu sektorda mərkəzi, qeyri-mərkəzi (desentralizasiya) və layihəyönümlü kimi fərqli idarəetmə metodologiyaları tətbiq edilməkdədir. Hər bir yanaşmanın özünəməxsus səmərəli tərəfləri ilə bərabər, müəyyən limitləri də vardır və onların faydalılığı konkret sosial-iqtisadi şəraitdən və mədəni iqlimdən asılı olaraq dəyişir.

Azərbaycanın mədəniyyət sferasında da musiqi menecmentinin modernləşdirilməsi son dövrlərdə prioritet məsələyə çevrilmişdir. Lakin sahə üzrə ixtisaslaşmış mütəxəssis qıtlığı, menecment təcrübəsinin zəifliyi, maliyyələşmə boşluqları və rəqəmsal yeniliklərə tam uyğunlaşa bilməmək kimi maneələr hələ də aktualdır. Məhz bu səbəbdən musiqi idarəçiliyi modellərinin nəzəri-praktiki cəhətdən tədqiq olunması və tətbiq prosesində yaranan kəsirlərin araşdırılması mühüm elmi və praktiki əhəmiyyət daşıyır. Müasir dövrdə mədəniyyət sənayesi cəmiyyətin sosial, iqtisadi və ideoloji tərəqqisini şərtləndirən strateji sektorlardan biri kimi çıxış edir. Bu sistemin ən dinamik qollarından olan musiqi sektoru artıq sadəcə bədii yaradıcılıq mühiti deyil, həm də mürəkkəb idarəçilik mexanizmləri ilə səciyyələnən bir sahədir. Musiqi məhsullarının ərsəyə gəlməsi, təşkili və kütlələrə çatdırılması artıq fərdi sənətkar fəaliyyətinin hüdudlarını aşaraq, peşəkar menecment yanaşmasını qaçılmaz edir. Bu müstəvidə musiqi menecmenti yaradıcılıq layihələrinin

planlaşdırılması, büdcə idarəçiliyi, marketinq strategiyaları və ümumi koordinasiyanı əhatə edən çoxşaxəli bir sistem kimi formalaşmışdır.

Beynəlxalq təcrübə göstərir ki, musiqi idarəçiliyində vahid bir şablon mövcud deyil və əsasən üç fundamental model tətbiq olunur. Mərkəzləşdirilmiş modeldə qərarlar vahid rəhbər orqan tərəfindən verilir ki, bu da daha çox dövlət müəssisələrində sabitliyi təmin etsə də, yaradıcı çevikliyi məhdudlaşdırır. Desentralizasiya olunmuş modeldə səlahiyyətlər bölüşdürülür, bu da qərarvermə sürətini artırır, lakin koordinasiya çətinliklərinə yol aça bilir. Layihə əsaslı idarəetmə modeli isə müasir musiqi biznesində ən effektiv yanaşma hesab olunur. Bu modeldə konkret hədəflər üçün müvəqqəti peşəkar komandalar yaradılır ki, bu da dəyişən bazar şərtlərinə və rəqəmsal platformaların tələblərinə daha sürətli adaptasiya olmağa imkan verir.

Azərbaycanın mədəniyyət sistemində musiqi menecmentinin inkişafı son illərdə xüsusi aktuallıq qazansa da, sahə hələ də keçid mərhələsindədir. Ölkədə keçirilən beynəlxalq festivallar musiqi mühitini canlandırsa da, peşəkar menecer kadrlarının azlığı, maliyyə resurslarının məhdudluğu və arxaik idarəetmə strukturları inkişafı ləngidən əsas amillərdir. Xüsusilə rəqəmsal transformasiya prosesində sosial media və onlayn yayım vasitələrindən sistemli istifadə, habelə intellektual mülkiyyətin qorunması məsələləri hələ də həllini gözləyən problemlər sırasındadır.

Mərkəzləşmiş idarəetmə sistemi yüksək nəzarət və struktur stabilliyi vəd etsə də, çox vaxt yaradıcı proseslərin tələb etdiyi dinamikliyi boğa bilir. Bunun əksinə olaraq, desentralizasiya (qeyri-mərkəzləşmə) yanaşması fərdi təşəbbüskarlığa geniş yol açdığı halda, ümumi idarəetmədə pərakəndəlik və əlaqələndirmə

zəifliyi yarada bilər. Günümüzün musiqi bazarında daha çox rəğbət görən layihə əsaslı model isə yüksək operativlik və innovativlik bəxş etsə də, daimi struktur dayanıqlığının olmaması ilə fərqlənir. Bu səbəbdən müasir praktikada tək bir modelə sadiq qalmaqdansa, fərqli metodların sintezindən yaranan hibrid yanaşmaların tətbiqi daha rasional yol hesab olunur.

Araşdırma nəticəsində musiqi menecmentinin tətbiq sferasında bir sıra fundamental maneələr aşkar edilmişdir. Bu sıraya ixtisaslaşmış kadr bankının zəifliyi, investisiya və maliyyə çatışmazlığı, arxaik rəhbərlik üsullarının qalması, bazar konyunkturası ilə zəif inteqrasiya və texnoloji yeniliklərin sənayeyə ləng daxil olması daxildir. Qeyd olunan faktorlar musiqi sənayesinin yüksəliş tempini ləngidir və onun qlobal rəqabət meydanındakı nüfuzunu zəiflədir. Eyni zamanda, dövrün ən böyük transformasiyası olan rəqəmsallaşma musiqi idarəçiliyinin strukturunu köklü şəkildə yeniləmişdir. Yayım (streaming) xidmətləri, virtual şəbəkələr və rəqəmsal təşviqat alətləri musiqi məhsulunun dinləyiciyə çatdırılma yolunu qısaltmış, idarəetmə dövriyyəsini daha sürətli etmişdir. Bu inqilabi dəyişikliklər musiqi menecmentində ənənəvi üsullardan imtina edərək, tamamilə yeni və innovativ idarəetmə paradiqmalarının mənimsənilməsini qaçılmaz edir.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 35-37
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 35-37
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Gender bərabərliyinin təşviqində sosial iş texnologiyalarının tətbiqi

**Səma Bədəlli**

***Açar sözlər:*** *gender bərabərliyi, sosial iş, sosial iş texnologiyaları, sosial müdaxilə, gender stereotipləri, sosial ədalət*
***Keywords:*** *gender equality, social work, social work technologies, social intervention, gender stereotypes, social justice*

Müasir dövrdə gender bərabərliyi sosial ədalətin, insan hüquqlarının və davamlı inkişafın əsas şərtlərindən biri kimi qəbul edilir. Qadın və kişilərin ictimai, iqtisadi və siyasi həyatda bərabər imkanlara malik olması cəmiyyətin demokratik inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Gender bərabərliyi yalnız hüquqi norma deyil, həm də sosial münasibətlərin keyfiyyətini müəyyən edən vacib göstəricidir. Azərbaycanda bu sahədə hüquqi baza formalaşdırılmış, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin aradan qaldırılması və bərabər imkanların yaradılması dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir (Azərbaycan Respublikasının Qanunu, 2006). Cəmiyyətdə gender stereotiplərinin davam etməsi, qadınların qərarvermə proseslərində kifayət qədər təmsil olunmaması, əmək bazarında qeyri-bərabər imkanlar və gender əsaslı zorakılıq halları problemin aktuallığını qoruyur.

Azərbaycan Turizm və Menecment Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: bedellisema750@gmail.com

Bu baxımdan gender bərabərliyinin təmin edilməsi yalnız qanunvericilik tədbirləri ilə məhdudlaşmamalı, sosial müdaxilə, maarifləndirmə və institusional əməkdaşlıq mexanizmləri ilə dəstəklənməlidir.

Sosial iş texnologiyalarının mahiyyəti. Sosial iş texnologiyaları cəmiyyətdə mövcud olan sosial problemlərin müəyyən edilməsi, qiymətləndirilməsi və həlli üçün tətbiq olunan praktik fəaliyyət üsullarıdır. Bu texnologiyalar fərdi, qrup və icma səviyyəsində həyata keçirilir. Fərdi sosial iş zamanı sosial işçi müraciət edən şəxsin sosial, psixoloji, hüquqi və iqtisadi vəziyyətini qiymətləndirir, ona uyğun dəstək mexanizmi müəyyən edir. Xüsusilə gender əsaslı zorakılığa, sosial təcridə və iqtisadi asılılığa məruz qalan şəxslər üçün fərdi sosial iş mühüm müdaxilə formasıdır.

Qrup səviyyəsində sosial iş oxşar problemlərlə üzləşən şəxslərin bir araya gətirilməsi və qarşılıqlı dəstək mühitinin yaradılması ilə xarakterizə olunur. Gender bərabərliyi mövzusunda keçirilən təlimlər, müzakirələr və maarifləndirici tədbirlər stereotiplərin azalmasına, iştirakçıların hüquqi məlumatlılığının artmasına və sosial bacarıqların inkişafına kömək edir. İcma səviyyəsində sosial iş isə daha geniş sosial dəyişiklikləri hədəfləyir. Bu səviyyədə maarifləndirmə kampaniyaları, ictimai müzakirələr və yerli təşəbbüslər gender bərabərliyinin cəmiyyət daxilində qəbul edilməsinə şərait yaradır.

Gender yanaşmasının sosial işə inteqrasiyası. Gender yanaşmasının sosial işə inteqrasiyası xidmətlərin daha ədalətli və həssas şəkildə təşkil olunmasını təmin edir. Sosial işçi qadın və kişilərin fərqli sosial təcrübələrini, ailə və əmək münasibətlərində qarşılaşdıqları maneələri, resurslara çıxış imkanlarını və sosial risklərini nəzərə almalıdır. Bu yanaşma sosial xidmətlərin yalnız formal şəkildə deyil, real ehtiyaclara

uyğun qurulmasına imkan verir. Gender əsaslı problemlər çox zaman sosial müdafiə, təhsil, səhiyyə, hüquq-mühafizə və məşğulluq sahələrinin kəsişməsində meydana çıxır. Buna görə sosial işçi müxtəlif institutlar arasında əlaqələndirici funksiyanı yerinə yetirməlidir. Dövlət qurumları, qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti institutlarının əməkdaşlığı gender bərabərliyinin təşviqində mühüm rol oynayır. Dövlət hüquqi və institusional çərçivəni müəyyən edir, QHT-lər sosial layihələr və maarifləndirmə tədbirləri həyata keçirir, vətəndaş cəmiyyəti isə ictimai iştirak və nəzarət mexanizmini gücləndirir.

Nəticə olaraq qeyd etmək olar ki, sosial iş texnologiyaları gender bərabərliyinin təşviqində mühüm praktik mexanizm kimi çıxış edir. Bu texnologiyalar gender əsaslı ayrı-seçkiliyin azaldılmasına, sosial ədalətin möhkəmlənməsinə, həssas qrupların müdafiəsinə və inklüziv cəmiyyətin formalaşmasına xidmət edir. Fərdi, qrup və icma səviyyəsində tətbiq olunan sosial iş metodları gender problemlərinin həm fərdi, həm də sosial mühit səviyyəsində həllinə imkan yaradır.

Gender bərabərliyinin daha səmərəli təmin olunması üçün sosial işçilərin gender həssaslığı üzrə peşəkar hazırlığı artırılmalı, sosial xidmətlərdə monitorinq və qiymətləndirmə mexanizmləri gücləndirilməli, dövlət və qeyri-dövlət institutları arasında əməkdaşlıq daha sistemli şəkildə təşkil edilməlidir.

*Elm və Təhsil Tədqiqatları* **XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 38-41**
***Research in Science and Education*** **XIV Republican Scientific Conference / 12 june 2026 / 38-41**
**https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026**

# İngilis dilinin tədrisində istifadə olunan müasir texnoloji vasitələr

**İlahə Əsgərli**

***Açar sözlər:*** *ingilis dili, xarici dil tədrisi, rəqəmsal təhsil, mobil tətbiqlər, interaktiv öyrənmə, süni intellekt, onlayn platformalar*
***Keywords:*** *english language, foreign language teaching, digital education, mobile applications, interactive learning, artificial intelligence, online platforms*

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı təhsil sisteminə, xüsusilə də xarici dillərin tədrisinə əhəmiyyətli təsir göstərmişdir. Bu məqalədə ingilis dilinin tədrisində istifadə olunan əsas texnoloji vasitələr araşdırılır və onların pedaqoji effektivliyi təhlil edilir. Tədqiqat nəticələri göstərir ki, rəqəmsal platformalar, mobil tətbiqlər, interaktiv lövhələr və onlayn resurslar tələbələrin dil bacarıqlarının inkişafında mühüm rol oynayır. Eyni zamanda, texnologiyanın düzgün inteqrasiyası müəllimin metodik yanaşmasından asılıdır. Qloballaşan dünyada ingilis dili beynəlxalq ünsiyyət vasitəsi kimi mühüm rol oynayır və onun öyrənilməsi təhsil sisteminin əsas prioritetlərindən birinə çevrilmişdir. Ənənəvi tədris metodları uzun müddət effektiv hesab edilsə də, müasir dövrdə texnologiyanın inkişafı bu metodların yenilənməsini zəruri etmişdir.

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: ilahe.asgerli1992@gmail.com

İnformasiya texnologiyalarının tədris prosesinə inteqrasiyası yalnız öyrənmə mühitini zənginləşdirmir, həm də tələbələrin motivasiyasını artırır, onların müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirir. Bu baxımdan, ingilis dilinin tədrisində istifadə olunan texnoloji vasitələrin araşdırılması aktual elmi problem kimi çıxış edir. Tezisin əsas məqsədi bu vasitələrin növlərini sistemləşdirmək, onların üstünlüklərini və tətbiq imkanlarını elmi əsaslarla təhlil etməkdir.

*1. Rəqəmsal platformalar və virtual öyrənmə mühitləri.* Rəqəmsal platformalar müasir təhsilin ayrılmaz hissəsinə çevrilmişdir. Bu platformalar vasitəsilə müəllim və tələbə arasında fasiləsiz ünsiyyət təmin olunur, müxtəlif növ tapşırıqlar, testlər və interaktiv fəaliyyətlər həyata keçirilir. Virtual öyrənmə mühitləri (Virtual Learning Environments – VLE) tələbələrə fərdi öyrənmə imkanları yaradır və onların öz tempinə uyğun inkişafını təmin edir. Bu platformaların əsas üstünlüklərindən biri də resursların müxtəlifliyidir. Tələbələr video dərslər, elektron kitablar, testlər və forum müzakirələri vasitəsilə biliklərini genişləndirə bilirlər. Eyni zamanda, müəllimlər tələbələrin fəaliyyətini izləyə və qiymətləndirmə prosesini avtomatlaşdıra bilirlər.

*2. Mobil tətbiqlərin rolu.* Mobil texnologiyaların inkişafı dil öyrənmə prosesini daha çevik və əlçatan etmişdir. Mobil tətbiqlər istifadəçilərə istənilən vaxt və məkanda dil öyrənmək imkanı yaradır. Bu tətbiqlər əsasən oyunlaşdırma (gamification) prinsiplərinə əsaslanaraq öyrənmə prosesini daha maraqlı və motivasiyaedici edir. Mobil tətbiqlərin üstünlükləri arasında fərdiləşdirilmiş öyrənmə, sürətli geribildirim və istifadəçi dostu interfeys xüsusi qeyd olunmalıdır. Bu vasitələr tələbələrin söz ehtiyatını artırmaqla yanaşı, qrammatik biliklərini və tələffüz bacarıqlarını da inkişaf etdirir.

*3. İnteraktiv lövhələr və multimedia texnologiyaları.* İnteraktiv lövhələr və multimedia vasitələri müasir sinif otaqlarının əsas komponentlərindən biridir. Bu texnologiyalar dərs prosesini daha dinamik və vizual cəhətdən cəlbedici edir. Müxtəlif video, audio və animasiya materiallarının istifadəsi tələbələrin diqqətini artırır və onların öyrənmə prosesinə aktiv iştirakını təmin edir. Multimedia texnologiyaları xüsusilə dinləmə və danışıq bacarıqlarının inkişafında mühüm rol oynayır. Real həyat situasiyalarını əks etdirən materiallar tələbələrin dili praktik şəkildə mənimsəməsinə kömək edir.

*4. Süni intellekt və adaptiv öyrənmə sistemləri.* Son illərdə süni intellekt texnologiyalarının təhsildə tətbiqi geniş vüsət almışdır. Bu sistemlər tələbələrin fərdi xüsusiyyətlərini və öyrənmə səviyyəsini analiz edərək onlara uyğun tədris materialları təqdim edir. Adaptiv öyrənmə sistemləri fərdi yanaşmanı gücləndirir və tədrisin effektivliyini artırır. Süni intellekt, həmçinin, avtomatik qiymətləndirmə, tələffüz yoxlanışı və chatbotlar vasitəsilə dil praktikası imkanları yaradır. Bu isə tələbələrin dil bacarıqlarını daha sürətli inkişaf etdirməsinə şərait yaradır.

*5. Sosial media və onlayn kommunikasiya vasitələri.* Sosial media platformaları da ingilis dilinin öyrənilməsində mühüm rol oynayır. Bu platformalar tələbələrə real ünsiyyət mühiti təqdim edir və onların dil bacarıqlarını praktik şəkildə inkişaf etdirməsinə imkan verir. Forumlar, bloglar və onlayn müzakirələr tələbələrin yazı və oxu bacarıqlarını gücləndirir.

*6. Blended learning və hibrid tədris modelləri.* Blended learning (qarışıq tədris) modeli ənənəvi və rəqəmsal tədris metodlarının inteqrasiyasını nəzərdə tutur. Bu model həm sinif daxili, həm də onlayn öyrənmə imkanlarını birləşdirərək daha effektiv nəticələr əldə etməyə imkan verir. Hibrid yanaşma tələbələrin fərdi ehtiyaclarını daha yaxşı qarşılamağa kömək edir.

Texnologiyanın tədris prosesinə inteqrasiyası bir sıra üstünlüklərlə yanaşı müəyyən çətinliklər də yaradır. Bunlara texniki problemlər, müəllimlərin texnoloji biliklərinin kifayət qədər olmaması və tələbələrin diqqətinin yayılması kimi amillər daxildir. Buna baxmayaraq, düzgün planlaşdırılmış və məqsədyönlü istifadə texnologiyanın mənfi təsirlərini minimuma endirə bilər.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, texnoloji vasitələr ingilis dilinin tədrisində mühüm əhəmiyyət kəsb edir və tədris prosesinin keyfiyyətini artırır. Bu vasitələr tələbələrin motivasiyasını yüksəldir, onların müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirir və dil bacarıqlarının kompleks şəkildə formalaşmasına şərait yaradır. Lakin texnologiyanın effektivliyi onun pedaqoji məqsədlərə uyğun istifadəsindən asılıdır. Bu baxımdan, müəllimlərin peşəkar inkişafı və texnoloji kompetensiyalarının artırılması xüsusi əhəmiyyət daşıyır.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 42-45
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 42-45
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Yeni media, rəqəmsal animasiya və qlobal bazara inteqrasiya

**Minaxanım Abdullayeva**

***Açar sözlər:*** *yeni media, rəqəmsal animasiya, qlobal bazar, innovasiya, inteqrasiya*
***Keywords:*** *new media, digital animation, global market, innovation, integration*

Müasir informasiya cəmiyyətində yeni media və rəqəmsal animasiya texnologiyaları qlobal kommunikasiya sisteminin əsas dayaqlarından birinə çevrilmişdir. İnternetin sürətli inkişafı, rəqəmsal platformaların yayılması və texnoloji innovasiyalar nəticəsində media mühiti köklü transformasiyaya məruz qalmışdır. Ənənəvi media vasitələri – televiziya, radio və çap mətbuatı – artıq öz dominant mövqeyini tədricən yeni media platformalarına verir. Yeni media interaktivlik, istifadəçi yönümlülük və çevik məzmun istehsalı ilə seçilərək fərdlərə həm istehlakçı, həm də istehsalçı kimi çıxış etmək imkanı yaradır. Yeni media anlayışını izah edərkən bir çox tədqiqatçılar onun çoxölçülü xarakterini vurğulayır. Media nəzəriyyəçisi Lev Manovich yeni medianı rəqəmsal texnologiyalar əsasında formalaşan və proqramlaşdırıla bilən media kimi xarakterizə edərək qeyd edir ki, "yeni media yalnız texnologiya deyil, həm də məlumatın təqdimat və qavranma üsullarının dəyişməsidir."

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: abdullayevamina29@gmail.com

Bu yanaşma göstərir ki, yeni media yalnız platforma deyil, həm də yeni düşüncə və kommunikasiya modelidir. Digər tədqiqatçı Henry Jenkins isə "konvergensiya mədəniyyəti" anlayışını irəli sürərək bildirir ki, müasir media mühitində müxtəlif platformalar arasında sərhədlər aradan qalxır və istifadəçilər aktiv iştirakçıya çevrilir. Onun fikrincə, "media konvergensiyası yalnız texnoloji deyil, həm də mədəni və sosial prosesdir."

Rəqəmsal animasiya yeni medianın ən dinamik və innovativ sahələrindən biri hesab olunur. Bu sahə vizual kommunikasiya vasitəsi kimi mürəkkəb ideyaların sadə və cəlbedici formada təqdim edilməsinə imkan yaradır. Animasiya yalnız əyləncə məqsədi daşımır, həm də təhsil, reklam, tibbi vizuallaşdırma və hətta hərbi simulyasiya kimi sahələrdə tətbiq olunur. Məsələn, Pixar studiyasının istehsal etdiyi Toy Story filmi kompüter animasiyasının kütləvi istifadəsinə təkan verərək bu sahədə inqilabi dönüş yaratmışdır. Bu film tamamilə 3D kompüter qrafikası ilə hazırlanmış ilk uzunmetrajlı animasiya filmi kimi tarixə düşmüş və qlobal bazarda böyük uğur qazanmışdır.

Rəqəmsal animasiya texnologiyalarının inkişafı proqram təminatının təkmilləşməsi ilə sıx bağlıdır. Müasir dövrdə animatorlar Autodesk Maya, Blender və Adobe After Effects kimi güclü alətlərdən istifadə edərək yüksək keyfiyyətli vizual məzmun yaradırlar. Bu proqramlar animasiya istehsalını demokratikləşdirərək fərdi yaradıcıların da qlobal bazara çıxışını mümkün edir. Məsələn, son illərdə müstəqil animatorların YouTube platformasında yayımladığı qısa animasiya filmləri milyonlarla baxış toplayaraq kommersiya uğuru əldə etmişdir.

Qlobal bazara inteqrasiya prosesində rəqəmsal platformaların rolu xüsusilə əhəmiyyətlidir. Netflix və TikTok kimi platformalar kontentin yayılmasını sürətləndirərək yaradıcı

sənayelərin beynəlxalqlaşmasına şərait yaradır. Bu platformalar vasitəsilə müxtəlif ölkələrdən olan animatorlar öz işlərini qlobal auditoriyaya təqdim edə bilir. Məsələn, Yaponiyanın anime sənayesi məhz rəqəmsal platformalar vasitəsilə dünya miqyasında geniş yayılmış və böyük iqtisadi gəlir əldə etmişdir. Eyni zamanda, Koreya və Çin animasiya studiyaları da son illərdə beynəlxalq bazarda rəqabət qabiliyyətini artırmışdır.

Qlobal bazarda uğur qazanmaq üçün yalnız texniki bacarıqlar kifayət etmir. Yaradıcılıq, innovativ yanaşma və güclü hekayəçilik bacarığı əsas amillərdən biridir. Bu baxımdan məşhur animator və rejissor John Lasseter qeyd edir ki, "texnologiya yalnız alətdir, əsas olan hekayədir." Bu fikir animasiya sənayesində məzmunun keyfiyyətinin texniki imkanlardan daha önəmli olduğunu göstərir. Digər tərəfdən, media tədqiqatçısı Marshall McLuhan "medium is the message" (vasitə mesajdır) tezisi ilə medianın özünün məzmun qədər əhəmiyyətli olduğunu vurğulayır. Bu yanaşma yeni media mühitində texnologiyanın və platformanın kontentin qəbuluna necə təsir etdiyini izah edir.

Azərbaycan üçün də yeni media və rəqəmsal animasiya sahəsində geniş inkişaf perspektivləri mövcuddur. Son illərdə ölkədə rəqəmsal texnologiyalara marağın artması, startap ekosisteminin formalaşması və yaradıcı sənayelərin inkişafı bu sahədə irəliləyişə zəmin yaradır. Yerli animatorlar və dizaynerlər beynəlxalq platformalarda iştirak edərək öz işlərini qlobal auditoriyaya təqdim etməyə başlamışlar. Bununla yanaşı, ali təhsil müəssisələrində animasiya və rəqəmsal media üzrə ixtisasların yaradılması bu sahənin gələcək inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Nəticə olaraq, yeni media və rəqəmsal animasiya qlobal iqtisadiyyatın və mədəniyyətlərarası əlaqələrin əsas

komponentlərindən birinə çevrilmişdir. Bu sahələrin inkişafı texnoloji innovasiyalarla yanaşı, yaradıcı yanaşma və strateji düşüncə tələb edir. Qlobal bazara inteqrasiya isə yalnız texniki imkanlarla deyil, həm də mədəni müxtəliflik, kreativ ideyalar və effektiv kommunikasiya strategiyaları ilə mümkün olur. Gələcəkdə yeni media və animasiya texnologiyalarının daha da inkişaf edərək qlobal informasiya mühitini formalaşdırmaqda həlledici rol oynayacağı gözlənilir.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 46-50
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 46-50
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Qida sənayesində keyfiyyət təhlükəsizliyi və ekspertiza sistemlərinin müasir inkişaf mexanizmləri

**Ruhan Nəcəfli**

***Açar sözlər:*** *qida sənayesi, keyfiyyətə nəzarət, qida ekspertizası, HACCP sistemi, ISO standartları, qida təhlükəsizliyi, rəqəmsal monitorinq*
***Keywords:*** *food industry, quality control, food expertise, HACCP system, ISO standards, food safety, digital monitoring*

Müasir dövrdə qida sənayesində məhsul keyfiyyətinin və təhlükəsizliyinin təmin olunması istehlakçı etimadının formalaşmasında və müəssisələrin rəqabət qabiliyyətinin artırılmasında əsas amillərdən biri hesab olunur. Qloballaşma, rəqəmsallaşma və istehlak bazarlarında rəqabətin güclənməsi qida müəssisələrində keyfiyyətə nəzarət sistemlərinin daha da təkmilləşdirilməsini zəruri edir. Bu baxımdan Ləzzət Group-da qida məhsullarının ekspertizası və keyfiyyətə nəzarət mexanizmlərinin araşdırılması mühüm praktik əhəmiyyət daşıyır. Araşdırma nəticəsində müəyyən olunmuşdur ki, keyfiyyətə nəzarətin innovativ əsaslarla təkmilləşdirilməsi məhsul təhlükəsizliyinin yüksəldilməsinə və istehsal səmərəliliyinin artırılmasına mühüm təsir göstərir. Eyni zamanda, müəssisədə HACCP və ISO standartlarının tətbiqi qida təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Məqalədə keyfiyyət idarəetmə sistemlərinin inkişaf etdirilməsi istiqamətində praktiki təkliflər də irəli sürülmüşdür.

Bakı Biznes Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: ruhannecefli@gmail.com

Müasir iqtisadi şəraitdə qida sənayesi ölkələrin sosial-iqtisadi inkişafında strateji əhəmiyyətə malik olan əsas sahələrdən biri hesab olunur. Qida məhsullarının keyfiyyəti və təhlükəsizliyi əhalinin sağlamlığı ilə birbaşa bağlı olduğundan bu sahədə keyfiyyətə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Son illərdə istehlakçıların keyfiyyətli və təhlükəsiz məhsullara olan tələbinin artması qida müəssisələrində beynəlxalq standartların tətbiqini daha da sürətləndirmişdir. Qlobal bazarlarda rəqabətin güclənməsi qida sənayesi müəssisələrinin yalnız məhsul istehsalı ilə deyil, həm də keyfiyyət idarəetməsi və təhlükəsizlik sistemlərinin effektiv təşkili ilə fərqlənməsini zəruri etmişdir. Bu baxımdan qida məhsullarının ekspertizası və keyfiyyətə nəzarət mexanizmləri müəssisələrin bazar mövqeyinin qorunmasında mühüm rol oynayır. Keyfiyyətə nəzarət sistemi məhsulun istehsal prosesindən başlayaraq son istehlakçıya çatdırılmasına qədər bütün mərhələləri əhatə edir.

Azərbaycanda qida sənayesinin inkişafı istiqamətində həyata keçirilən institusional islahatlar və dövlət dəstəyi bu sahədə müasir idarəetmə sistemlərinin tətbiqini sürətləndirmişdir. Xüsusilə iri qida istehsalçıları sırasında yer alan Ləzzət Group-da keyfiyyət idarəetmə sistemlərinin tətbiqi və laborator nəzarət mexanizmlərinin inkişafı müəssisənin rəqabət qabiliyyətinin yüksəldilməsinə mühüm təsir göstərir. Ləzzət Group-da məhsul keyfiyyətinin təmin olunması məqsədilə istehsal proseslərinin bütün mərhələlərində ciddi nəzarət həyata keçirilir. Müəssisədə xammalın qəbulu zamanı ilkin laborator analizlər aparılır və məhsulların təhlükəsizlik göstəriciləri yoxlanılır. Eyni zamanda, istehsal prosesində gigiyenik normalara əməl olunması və texnoloji parametrlərin monitorinqi məhsul keyfiyyətinin qorunmasına imkan yaradır. Müasir dövrdə qida təhlükəsizliyinin təmin edilməsində HACCP sistemi mühüm rol oynayır. Bu sistem istehsal prosesində potensial risklərin

əvvəlcədən müəyyən olunmasına və onların minimuma endirilməsinə imkan verir (HACCP Principles & Application Guidelines, 2020). Ləzzət Group-da HACCP prinsiplərinin tətbiqi məhsul təhlükəsizliyinin yüksəldilməsi və beynəlxalq standartlara uyğun istehsalın təşkili baxımından mühüm əhəmiyyət daşıyır.

Bununla yanaşı, müəssisədə ISO 22000 keyfiyyət idarəetmə standartlarının tətbiqi qida təhlükəsizliyi sisteminin daha effektiv təşkilinə şərait yaradır. Bu standartlar istehsal proseslərində şəffaflığın təmin edilməsinə, keyfiyyət risklərinin idarə olunmasına və məhsulların beynəlxalq bazar tələblərinə uyğunlaşdırılmasına imkan verir. Məqalə çərçivəsində aparılan təhlillər göstərir ki, rəqəmsal texnologiyaların tətbiqi qida sənayesində keyfiyyətə nəzarətin effektivliyini artıran əsas amillərdən biridir. Müasir monitorinq sistemləri və avtomatlaşdırılmış idarəetmə mexanizmləri istehsal prosesində yaranan problemlərin operativ şəkildə müəyyən edilməsinə imkan yaradır. Rəqəmsal nəzarət sistemləri məhsulların saxlanma temperaturu, istehsal müddəti və sanitariya göstəricilərinin real vaxt rejimində izlənməsini təmin edir.

**Cədvəl 1**

*Ləzzət Group-da keyfiyyətə nəzarət sisteminin əsas istiqamətləri*

| **İstiqamətlər** | **Tətbiq olunan mexanizmlər** |
|---|---|
| Xammala nəzarət | Laborator analiz və təhlükəsizlik yoxlamaları |
| İstehsal prosesinə nəzarət | HACCP sistemi və texnoloji monitorinq |
| Gigiyena və sanitariya | Sanitariya standartlarının tətbiqi |
| Hazır məhsulun yoxlanılması | Keyfiyyət ekspertizası və laborator sınaqlar |
| Rəqəmsal monitorinq | Avtomatlaşdırılmış idarəetmə sistemləri |
| Beynəlxalq standartlar | ISO 22000 və keyfiyyət idarəetmə sistemi |

**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi, müəssisədə keyfiyyətə nəzarət sistemi kompleks şəkildə təşkil olunmuşdur və istehsalın bütün mərhələlərini əhatə edir. Müasir qida sənayesində rəqabət qabiliyyətinin artırılması üçün innovativ texnologiyaların tətbiqi xüsusi əhəmiyyət daşıyır. Ləzzət Group-da istehsal proseslərinin avtomatlaşdırılması, laborator analiz sistemlərinin modernləşdirilməsi və rəqəmsal idarəetmə texnologiyalarının tətbiqi məhsul keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərir.

Araşdırmalar göstərir ki, keyfiyyətə nəzarət sistemlərinin effektiv təşkili yalnız məhsul təhlükəsizliyinin təmin edilməsinə deyil, həm də istehsal xərclərinin optimallaşdırılmasına imkan yaradır. Keyfiyyət risklərinin vaxtında müəyyən olunması məhsul itkisini azaldır və istehsal proseslərinin davamlılığını təmin edir. Bununla yanaşı, müəssisədə əməkdaşların peşəkar hazırlıq səviyyəsinin artırılması və qida təhlükəsizliyi üzrə təlim proqramlarının təşkili keyfiyyət idarəetmə sisteminin effektivliyinə mühüm təsir göstərir. İnsan kapitalının inkişafı keyfiyyətə nəzarət mexanizmlərinin düzgün tətbiqi baxımından vacib amillərdən biridir.

Aparılan təhlillər nəticəsində müəyyən olunmuşdur ki, Ləzzət Group-da qida məhsullarının ekspertizası və keyfiyyətə nəzarət sistemi müasir tələblərə uyğun şəkildə inkişaf etdirilir. Lakin beynəlxalq bazarlarda rəqabətin daha da güclənməsi müəssisədə innovativ idarəetmə mexanizmlərinin genişləndirilməsini zəruri edir. FAO tərəfindən aparılan araşdırmalarda da qeyd olunur ki, qida təhlükəsizliyi sistemlərinin davamlı inkişafı üçün rəqəmsal monitorinq və beynəlxalq standartların tətbiqi mühüm əhəmiyyət daşıyır.

Aşağıdakı təkliflər irəli sürülə bilər:

- rəqəmsal keyfiyyət monitorinq sistemlərinin genişləndirilməsi;
- laborator ekspertiza imkanlarının modernləşdirilməsi;
- beynəlxalq keyfiyyət sertifikatlarının tətbiqinin artırılması;
- qida təhlükəsizliyi üzrə əməkdaşların ixtisasartırma proqramlarının genişləndirilməsi;
- istehsal proseslərində avtomatlaşdırılmış idarəetmə sistemlərinin inkişaf etdirilməsi.

Nəticə etibarilə müəyyən edilmişdir ki, qida məhsullarının ekspertizasının və keyfiyyətə nəzarət sistemlərinin təkmilləşdirilməsi müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsi və istehlakçı etimadının gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Ləzzət Group nümunəsində aparılan təhlillər göstərir ki, innovativ keyfiyyət idarəetmə sistemlərinin tətbiqi qida sənayesində davamlı inkişafın təmin edilməsinə mühüm töhfə verir.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 51-54
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 51-54
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# İroniya və sarkazmın siyasi kommunikasiya vasitəsi kimi rolu

**Leyla Cəfərzadə**

***Açar sözlər:*** *ironiya, sarkazm, kommunikasiya, diskurs, ritorika, praqmatika, strategiya*
***Keywords:*** *irony, sarcasm, communication, discourse, rhetoric, pragmatics, strategy*

Qloballaşma prosesləri və xüsusilə sosial medianın siyasi kommunikasiya sahəsində təsirinin artması ironiya və sarkazmın istifadəsini daha da genişləndirmişdir. Qısa, cəlbedici və emosional yüklü mesajların üstünlük təşkil etməsi bu vasitələrin effektivliyini artırmaqla yanaşı, onların daha geniş auditoriyalara sürətlə yayılmasına şərait yaradır. Siyasi çıxışlar, debatlar və seçki kampaniyalarında ironiya və sarkazm həm tərəfdarların səfərbər olunması, həm də rəqib siyasi aktorların nüfuzunun zəiflədilməsi məqsədilə istifadə olunur.

İroniya və sarkazm müasir siyasi kommunikasiya sahəsində siyasətçilərin geniş istifadə etdiyi təsirli diskurs strategiyalarından hesab olunur. Bu praqmatik vasitələr vasitəsilə siyasi mesajlar birbaşa tənqidə yönəlmədən, daha dolayısı ilə və incə şəkildə auditoriyaya çatdırılır, nəticədə həm emosional, həm də intellektual reaksiyalar daha güclü formalaşır.

---

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: leylaaskerova1717@gmail.com

Bununla belə, bu praqmatik vasitələrin istifadəsi müəyyən risklər də daşıyır. Onların düzgün anlaşılması auditoriyanın sosial, mədəni və diskursiv bilik səviyyəsindən asılıdır. Yanlış interpretasiya hallarında siyasi mesajın mənası təhrif oluna və ictimai reaksiyalar gözlənilməz istiqamət ala bilər. Buna görə də, ironiya və sarkazmın siyasi kommunikasiya prosesində rolu yalnız ritorik bacarıq çərçivəsində deyil, eyni zamanda, kompleks və elmi təhlil tələb edən kommunikativ fenomen kimi qiymətləndirilməlidir.

İroniya və sarkazm siyasi kommunikasiya prosesində sadəcə dil vasitələri kimi deyil, məqsədyönlü və strateji funksiyaya malik praqmatik alətlər kimi çıxış edir. Bu üsullar siyasətçilərə birbaşa qarşıdurmadan yayınaraq tənqidi mövqelərini dolayı yolla ifadə etmək imkanı verir. Xüsusilə demokratik sistemlərdə açıq aqressiv tənqid bəzən ictimai rəydə mənfi qarşılıq yarada bilər, lakin ironiya və sarkazm daha incə və eyni zamanda təsirli vasitə kimi işləyir.

Siyasi diskursda ironiyanın əsas rolu opponentin arqumentlərini zəiflətmək və onları qeyri-ciddi kimi göstərməkdir. Siyasətçi bu zaman opponentin mövqeyini birbaşa inkar etmədən, incə ironik vurğularla zəif tərəfləri ön plana çıxarır. Bu yanaşma dinləyicinin tənqidi düşünmə qabiliyyətini stimullaşdırır və mesajın daha dərindən qavranılmasını təmin edir. Eyni zamanda, ironiya siyasətçinin intellektual üstünlüyünü və ritorik ustalığını nümayiş etdirmək funksiyasına da malikdir.

Sarkazm isə daha kəskin və konfrontativ xarakter daşıyır. O, xüsusilə ictimai narazılıqların yüksək olduğu dövrlərdə, siyasi qalmaqallarda və populist çıxışlarda intensiv istifadə olunur. Sarkazm siyasətçilərə rəqiblərin etibarlılığını sarsıtmaq, onların imicinə təsir göstərmək və auditoriyanın emosional reaksiyasını yönləndirmək imkanı verir. Debat və parlament çıxışlarında bu,

auditoriyanın dərhal emosional reaksiya verməsini təmin edən effektiv vasitədir.

İroniya və sarkazmın təsiri auditoriyanın sosial, mədəni və dil biliklərinə bağlıdır. Eyni ifadə bir qrup tərəfindən uğurlu ritorik üsul kimi qəbul edilə bilər, digəri tərəfindən isə yanlış və ya təhqiramiz hesab edilə bilər. Buna görə siyasətçilər bu vasitələrdən istifadə edərkən hədəf auditoriyanın ideoloji mövqeyini və praqmatik bilik səviyyəsini nəzərə almalıdır; əks halda, mesajın effektivliyi azalır və kommunikativ uğursuzluq baş verə bilər.

Müasir media mühiti ironiya və sarkazmın rolunu daha da gücləndirib. Sosial şəbəkələrdə qısa və ironik mesajlar sürətlə yayılır, ictimai rezonans doğurur və siyasi gündəmi formalaşdırır. Bu, ironiya və sarkazmın artıq yalnız sözlü diskurs deyil, həm də vizual və multimodal kommunikasiya çərçivəsində fəaliyyət göstərdiyini göstərir. Beləliklə, bu praqmatik vasitələr müasir siyasi kommunikasiya sistemində informasiya ötürməklə yanaşı, güc münasibətlərinin və ideoloji mövqelərin qurulmasında mühüm rol oynayan kompleks diskurs mexanizmləri kimi qiymətləndirilə bilər.

Aparılmış təhlil göstərir ki, ironiya və sarkazm müasir siyasi kommunikasiya sistemində təkcə üslubi ifadə vasitələri deyil, həm də məqsədyönlü və strateji diskurs mexanizmləri kimi fəaliyyət göstərir. Bu praqmatik alətlər siyasətçilərə birbaşa və açıq tənqiddən yayınaraq öz ideoloji mövqelərini ifadə etmək, siyasi rəqiblərin arqumentlərini zəiflətmək və ictimai rəyin formalaşmasına təsir göstərmək imkanı verir. Bu baxımdan ironiya və sarkazm siyasi mesajların həm məzmun strukturunu, həm də təsir gücünü müəyyən edən əsas kommunikativ vasitələrdən biri kimi çıxış edir.

Nəticə etibarilə, ironiya daha çox yumşaq, dolayı və intellektual təsirə əsaslanan mexanizm kimi siyasi diskursda davamlı şəkildə istifadə olunduğu halda, sarkazm daha sərt və emosional xarakteri ilə xüsusilə gərgin siyasi situasiyalarda və polemik debatlarda daha qabarıq şəkildə özünü göstərir. Hər iki vasitənin effektivliyi isə birbaşa olaraq kontekstin düzgün seçilməsindən, eləcə də auditoriyanın praqmatik və mədəni bilik səviyyəsindən asılıdır.

Araşdırma onu da müəyyən edir ki, rəqəmsal media mühitinin inkişafı ironiya və sarkazmın yayılma sürətini və təsir dairəsini əhəmiyyətli dərəcədə genişləndirmişdir. Qısa, ironik və istehzalı mesajlar siyasi gündəmin formalaşmasında mühüm rol oynayaraq diskursu daha dinamik və emosional xarakterə yönəldir. Bu isə həmin praqmatik vasitələrin yalnız şifahi nitqdə deyil, həm də multimodal və vizual kommunikasiya formalarında öyrənilməsini zəruri edir.

Ümumilikdə, ironiya və sarkazmın siyasi kommunikasiya prosesində rolu onların həm yüksək təsir potensialına, həm də müəyyən kommunikativ risklərə malik olduğunu göstərir. Bu praqmatik vasitələrin elmi cəhətdən araşdırılması siyasi diskursun mahiyyətinin daha dərindən anlaşılmasına və müasir siyasi kommunikasiya strategiyalarının daha düzgün qiymətləndirilməsinə mühüm töhfə verir.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 55-57
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 55-57
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Kinodramaturgiyada "anti-narrativ"in sistemləşdirilməsi: fransız "Yeni Dalğa"sında alternativ dramaturji model

**Zöhrə Yusubova**

***Açar sözlər:*** *kinodramaturgiya, anti-narrativ, fransız "Yeni Dalğa"sı, narratologiya, dramaturji struktur, kino semiotikası*
***Keywords:*** *film dramaturgy, anti-narrative, French New Wave, narratology, dramaturgical structure, film semiotics*

XX əsrin ortalarında fransız "Yeni Dalğa"sının formalaşdırdığı kino dili klassik kinodramaturgiya prinsiplərinə qarşı estetik və narrativ etiraz kimi meydana çıxmışdır. Bu cərəyan çərçivəsində ənənəvi süjet quruluşunun – səbəb-nəticə əlaqələrinin, dramatik kulminasiyanın və qəhrəman mərkəzli inkişaf modelinin şüurlu şəkildə pozulması müşahidə olunur. Lakin bu pozuntu uzun müddət ərzində yalnız destruktiv yanaşma kimi şərh edilmişdir. Mövcud tədqiqatlarda "Yeni Dalğa" filmləri "süjetsiz" və ya "xaotik" kimi xarakterizə olunsa da, bu yanaşmalar həmin filmlərdə mövcud olan alternativ struktur prinsiplərini sistemli şəkildə izah etmir. Bu baxımdan təqdim olunan tezisdə fransız "Yeni Dalğası"nda "anti-narrativ" fenomeni yalnız süjetin dağıdılması kimi deyil, alternativ dramaturji model kimi təhlil olunur. Tədqiqatın əsas məqsədi aşağıdakı sualı cavablandırmaqdır: "Yeni Dalğa" süjeti dağıdır, yoxsa yeni tip narrativ sistem yaradır?

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: vennuravi6@gmail.com

Tədqiqatın metodoloji əsasını narratologiya, kino semiotikası və alternativ dramaturji modelləşdirmə təşkil edir. Nəzəri çərçivə aşağıdakı müəlliflərin ideyalarına əsaslanır:

- Gérard Genette – narrativ zaman, mod və fokuslanma anlayışları.
- David Bordwell – film narrasiyası və klassik dramaturji sistem.
- Yuri Lotman – kino semiotikası və mədəni mətn modeli.
- Gilles Deleuze – zaman-obraz və qeyri-xətti narrativ.

Bu yanaşmalar narrativi sabit struktur deyil, dəyişən və çoxqatlı sistem kimi nəzərdən keçirməyə imkan verir. Metodoloji yenilik kimi tədqiqatda *"event density mapping" (hadisə sıxlığı xəritələnməsi)* adlı analitik model tətbiq olunur. Bu model süjeti xronoloji ardıcıllıqla deyil, hadisələrin intensivliyi və narrativ yükü əsasında təhlil etməyə imkan verir.

*ANTİ-NARRATİV MODELİ*

*1.Fraqmentasiya mərhələsi (strukturun parçalanması).* Birinci mərhələ klassik süjet strukturunun parçalanması ilə xarakterizə olunur. Hadisələr arasında səbəb-nəticə əlaqələri zəifləyir və ya tamamilə aradan qalxır. Bu mərhələdə narrativ vahid xətt üzrə inkişaf etmir, əksinə, epizodik və fraqmentar xarakter alır. Səhnələr arasında keçidlər məntiqi deyil, assosiativ və ya təsadüfi görünə bilər.

*2.Asinxron quruluş mərhələsi (zaman və məkanın dekonstruksiyası).* İkinci mərhələdə narrativ zaman və məkan sabitliyini itirir. Xronoloji ardıcıllıq pozulur, retrospektiv və ya paralel zaman qatları bir-birinə qarışır. Bu mərhələdə hadisələrin ardıcıllığı deyil, onların təqdim olunma forması ön plana çıxır. Subyektiv baxış bucağı güclənir və narrativ psixoloji ölçü qazanır. Nəticədə, süjet xətti deyil, çoxqatlı və qeyri-xətti struktur kimi formalaşır.

*3.Narrativ boşluq mərhələsi (interpretativ sistemin qurulması).* Son mərhələdə klassik dramaturgiyada çatışmazlıq hesab olunan boşluqlar struktur elementinə çevrilir. Hadisələr arasındakı əlaqələr tam izah olunmur və tamaşaçı aktiv interpretasiya prosesinə cəlb edilir. Bu isə narrativi qapalı sistemdən açıq sistemə çevirir. Bu mərhələdə anti-narrativ artıq destruktiv deyil, alternativ dramaturji model kimi fəaliyyət göstərir.

*Modelin nəzəri mahiyyəti və elmi yeniliyi.* Təklif olunan anti-narrativ modeli kinodramaturgiyada süjetin dağıdılması kimi deyil, onun transformasiyası kimi izah edir. Modelin əsas elmi yeniliyi aşağıdakılardan ibarətdir: "Anti-narrativ" anlayışı ilk dəfə sistemli dramaturji model kimi təqdim olunur. Süjet xətti struktur deyil, hadisə sıxlığı əsasında qurulan dinamik sistem kimi izah edilir. Narrativ boşluqlar çatışmazlıq deyil, struktur elementi kimi nəzərdən keçirilir. Bu yanaşma göstərir ki, fransız "Yeni Dalğa"sı klassik dramaturgiyanı inkar etmir, onu alternativ prinsip əsasında yenidən təşkil edir.

Tədqiqat nəticəsində müəyyən olunur ki, fransız "Yeni Dalğa" kinosunda anti-narrativ fenomeni destruktiv deyil, transformativ xarakter daşıyır. "Yeni Dalğa" süjeti aradan qaldırmır, onu fraqmentar, çoxqatlı və açıq interpretasiya sisteminə çevirir. Beləliklə, kino burada yalnız hekayə danışmaq vasitəsi deyil, yeni narrativ məntiq yaradan estetik sistem kimi çıxış edir.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 58-63
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 58-63
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Sosial xidmətlərin idarə edilməsində innovativ texnologiyaların tətbiqi: Azərbaycan təcrübəsi və perspektivlər

**Aysel Əlizadə**

***Açar sözlər:*** *sosial xidmətlər, innovativ texnologiyalar, rəqəmsallaşma, sosial idarəetmə, DOST, e-Sosial, sığorta mexanizmi*
***Keywords:*** *social services, innovative technologies, digitalization, social governance, DOST, e-Social, insurance mechanism*

Müasir dövrdə sosial xidmətlərin idarə edilməsi yalnız inzibati qərarların icrası ilə məhdudlaşmır. Bu sahə vətəndaş məmnunluğunun artırılması, sosial həssas qrupların ehtiyaclarının vaxtında müəyyən edilməsi, dövlət resurslarından səmərəli istifadə olunması və xidmətlərin şəffaf şəkildə təşkili kimi mühüm istiqamətləri əhatə edir. Rəqəmsallaşma və innovativ texnologiyalar sosial xidmətlərin idarə edilməsində yeni imkanlar yaradır. Elektron platformalar, vahid məlumat bazaları, mobil tətbiqlər, avtomatlaşdırılmış müraciət sistemləri və rəqəmsal monitorinq mexanizmləri sosial xidmətlərin daha çevik, əlçatan və nəticəyönümlü idarə olunmasına şərait yaradır.

Azərbaycan təcrübəsində sosial xidmətlərin rəqəmsallaşdırılması dövlət idarəçiliyinin modernləşdirilməsi ilə sıx bağlıdır.

Azərbaycan Turizm və Menecment Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: ayselalizadah@gmail.com

Son illərdə sosial müdafiə, məşğulluq, pensiya, əlillik, sosial müavinət, ünvanlı sosial yardım və sığorta istiqamətlərində elektron xidmətlərin genişlənməsi vətəndaşların dövlət orqanları ilə təmasını sadələşdirmişdir. Xüsusilə "e-Sosial" portalı, DOST mərkəzləri, elektron müraciət sistemləri və icbari tibbi sığorta mexanizmi sosial xidmətlərin idarə edilməsində innovativ yanaşmanın formalaşmasına təsir göstərmişdir. "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi də bu sahənin institusional inkişafını və xidmətlərin daha səmərəli təşkili zərurətini göstərir. Dövlət Proqramında tədbirlərin icrasının əlaqələndirilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilmiş, monitorinq və qiymətləndirmə mexanizmi də nəzərdə tutulmuşdur.

*Sosial xidmətlərin idarə edilməsində innovativ texnologiyaların əhəmiyyəti.* Sosial xidmətlərin idarə edilməsində innovativ texnologiyaların tətbiqi ilk növbədə xidmətlərin əlçatanlığını artırır. Əvvəllər vətəndaş sosial xidmət almaq üçün müxtəlif qurumlara müraciət etməli, sənədləri kağız formada təqdim etməli və uzun müddət cavab gözləməli olurdu. Rəqəmsal sistemlər isə məlumatların vahid bazada toplanmasına, müraciətlərin elektron formada qəbul edilməsinə və qərarların daha operativ verilməsinə imkan yaradır. Bu yanaşma həm vətəndaşların vaxt itkisini azaldır, həm də dövlət qurumlarının inzibati yükünü yüngülləşdirir.

İnnovativ texnologiyalar sosial xidmətlərin ünvanlılığını da gücləndirir. Sosial müdafiə sistemində əsas məsələlərdən biri yardım və xidmətlərin həqiqətən ehtiyacı olan şəxslərə çatdırılmasıdır. Elektron informasiya sistemləri ailənin gəlir vəziyyəti, məşğulluq statusu, əlillik dərəcəsi, pensiya hüququ, sosial müavinət alma imkanı və digər göstəricilər üzrə məlumatları müqayisə etməyə imkan verir. Bunun nəticəsində

sosial xidmətlərin təyinində subyektiv yanaşmalar azalır, qərarların obyektivliyi və şəffaflığı artır.

Digər mühüm üstünlük idarəetmədə nəzarət və qiymətləndirmə imkanlarının genişlənməsidir. Sosial xidmətlər üzrə rəqəmsal platformalar müraciətlərin sayı, icra müddəti, xidmət keyfiyyəti, vətəndaş məmnunluğu və regionlar üzrə ehtiyacların bölgüsü haqqında məlumatların təhlilinə şərait yaradır. Belə məlumatlar əsasında sosial siyasətin planlaşdırılması daha real göstəricilərə əsaslanır. Bu isə sosial xidmətlərin sadəcə reaktiv formada deyil, qabaqlayıcı idarəetmə prinsipləri əsasında təşkilinə imkan verir.

*Azərbaycan təcrübəsində rəqəmsallaşan sosial xidmət platformaları.* Azərbaycanda sosial xidmətlərin rəqəmsal-laşması istiqamətində ən mühüm platformalardan biri "e-Sosial" portalıdır. Portal vətəndaşlara şəxsi kabinet vasitəsilə sosial xidmətlər barədə məlumat almaq və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi elektron xidmətlərdən istifadə etmək imkanı yaradır. Portalın təqdimatında onun "sürətli, funksional və əlçatan" olduğu, vətəndaşların şəxsi kabinet vasitəsilə sosial xidmətlərlə bağlı məlumat əldə edə bildiyi qeyd olunur. Bu platforma sosial müdafiə sahəsində məlumatların mərkəzləşdirilməsi və vətəndaş-məmur təmasının azaldılması baxımından əhəmiyyətlidir.

DOST mərkəzləri də Azərbaycanda sosial xidmətlərin innovativ idarəetmə modelinə nümunə hesab edilə bilər. DOST Agentliyinin rəsmi məlumatına görə, DOST mərkəzlərində məşğulluq, əmək münasibətləri, əmək pensiyaları, sosial müavinətlər, Prezident təqaüdləri, əlillik, sosial sığorta və sosial xidmətlər istiqamətində, həmçinin, bank və notariat xidmətləri kimi funksional yardımçı xidmətlər də daxil olmaqla ümumilikdə 162 xidmət göstərilir. Bu model "bir pəncərə"

prinsipinə əsaslandığı üçün vətəndaşın müxtəlif qurumlara ayrı-ayrılıqda müraciət etməsinə ehtiyac azalır.

*Sosial xidmətlərin idarə edilməsində sığorta mexanizminin rolu*. Sosial xidmətlərin idarə edilməsində sığorta mexanizmi vətəndaşların sosial risklərdən qorunması baxımından mühüm əhəmiyyətə malikdir. Bu mexanizm əhalinin müəyyən sosial və tibbi risklər zamanı müdafiəsini təmin edir, xidmətlərin maliyyələşdirilməsi üçün daha dayanıqlı baza yaradır. Azərbaycanda icbari tibbi sığorta sistemi bu baxımdan sosial müdafiə mexanizmlərindən biri kimi çıxış edir. İcbari tibbi sığorta əhalinin sosial müdafiəsi forması olaraq sığorta hadisəsi zamanı vətəndaşlara ilkin səhiyyə xidmətləri, təcili və təxirəsalınmaz tibbi yardım və Xidmətlər Zərfində nəzərdə tutulmuş tibbi xidmətlər üzrə təminat verir. Səhiyyə Nazirliyinin məlumatına əsasən, icbari tibbi sığortanın ölkə üzrə mərhələli tətbiqinə 1 yanvar 2020-ci ildən başlanılmış, 1 aprel 2021-ci ildən isə sistem bütün ölkə ərazisini əhatə etmişdir. Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin sayı 3315-dir.

Bu mexanizmin sosial xidmətlərin idarə edilməsinə təsiri ondan ibarətdir ki, vətəndaşın tibbi xidmətə çıxışı fərdi ödəniş imkanlarından daha az asılı olur. Eyni zamanda, sığorta sistemi dövlətin sosial xərclərinin planlaşdırılmasına, tibbi xidmətlərin tarifləşdirilməsinə və xidmət keyfiyyətinin izlənilməsinə şərait yaradır. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin məlumatında göstərilir ki, vətəndaşa Xidmətlər Zərfi çərçivəsində lazım olan tibbi xidməti dövlət tibb müəssisələrində göstərmək mümkün olmadıqda Agentliklə müqaviləli özəl və ya sahəvi tabeliliyi olan tibb müəssisələrinə göndəriş verilə bilər və göndəriş əsasında göstərilən xidmətlər ödənişsizdir. Bu yanaşma sosial xidmətlərdə dövlət-özəl əməkdaşlığının praktik nümunəsi kimi də qiymətləndirilə bilər.

*Mövcud problemlər və inkişaf perspektivləri.* Azərbaycanda sosial xidmətlərin rəqəmsallaşması sahəsində mühüm nəticələr əldə olunsa da, bu prosesin daha da təkmilləşdirilməsinə ehtiyac vardır. Birinci problem rəqəmsal savadlılıqla bağlıdır. Yaşlı şəxslər, əlilliyi olan insanlar, ucqar ərazilərdə yaşayan vətəndaşlar və internetə çıxışı məhdud olan qruplar elektron xidmətlərdən istifadə zamanı çətinliklərlə üzləşə bilirlər. Buna görə rəqəmsal sosial xidmətlər fiziki xidmət kanallarını tam əvəz etməməli, əksinə, onları tamamlamalıdır.

İkinci problem məlumat təhlükəsizliyi və şəxsi məlumatların qorunması ilə bağlıdır. Sosial xidmətlər sahəsində işlənən məlumatlar vətəndaşın gəliri, sağlamlıq vəziyyəti, ailə tərkibi, əlillik statusu və sosial müdafiə hüquqları kimi həssas informasiyaları əhatə edir. Bu səbəbdən innovativ texnologiyaların tətbiqi zamanı kibertəhlükəsizlik, məlumatların məxfiliyi və informasiya sistemlərinin dayanıqlılığı xüsusi diqqətdə saxlanılmalıdır.

Üçüncü problem müxtəlif qurumların informasiya sistemləri arasında inteqrasiyanın daha da gücləndirilməsi zərurətidir. Sosial xidmətlərin effektiv idarə olunması üçün məşğulluq, səhiyyə, təhsil, vergi, yerli icra strukturları və sosial müdafiə qurumları arasında məlumat mübadiləsi sürətli və təhlükəsiz olmalıdır. Bu inteqrasiya vətəndaşdan təkrar sənəd tələbini azaldır və xidmətlərin avtomatlaşdırılmasını asanlaşdırır.

Gələcək perspektivlər baxımından sosial xidmətlərdə süni intellekt, böyük verilənlər analitikası, proqnozlaşdırma modelləri və mobil sosial xidmətlərin geniş tətbiqi mühüm əhəmiyyət daşıya bilər. Məsələn, sosial risk qrupuna daxil olan ailələrin əvvəlcədən müəyyənləşdirilməsi, ehtiyacların regionlar üzrə xəritələşdirilməsi, sosial işçilərin fəaliyyətinin rəqəmsal izlənilməsi və vətəndaş məmnunluğunun avtomatik

qiymətləndirilməsi sosial xidmətlərin keyfiyyətini artıra bilər. Lakin bu texnologiyalar insan amilini aradan qaldırmamalı, sosial işin humanist mahiyyətini dəstəkləyən köməkçi vasitə kimi tətbiq olunmalıdır.

Aparılan təhlil göstərir ki, sosial xidmətlərin idarə edilməsində innovativ texnologiyaların tətbiqi Azərbaycanda sosial müdafiə sisteminin modernləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. "e-Sosial" portalı, DOST mərkəzləri, elektron xidmətlər, icbari tibbi sığorta mexanizmi və vahid məlumat sistemləri sosial xidmətlərin daha şəffaf, çevik və əlçatan olmasına imkan verir. Bu proses vətəndaş məmnunluğunu artırmaqla yanaşı, dövlət idarəçiliyində resurslardan daha səmərəli istifadəni də təmin edir.

Bununla yanaşı, sosial xidmətlərin rəqəmsallaşdırılması yalnız texniki yenilik kimi qəbul edilməməlidir. Bu proses sosial ədalətin təmin olunması, həssas qrupların müdafiəsi, xidmət keyfiyyətinin yüksəldilməsi və idarəetmədə hesabatlılığın artırılması məqsədinə xidmət etməlidir. Azərbaycanda sosial xidmətlərin innovativ idarəetmə modeli daha da inkişaf etdirilərsə, bu sahədə həm milli səviyyədə effektivlik arta, həm də ölkənin sosial idarəetmə təcrübəsi beynəlxalq səviyyədə daha geniş tətbiq imkanları qazana bilər.

*Elm və Təhsil Tədqiqatları* **XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 64-66**
*Research in Science and Education* **XIV Republican Scientific Conference / 12 june 2026 / 64-66**
**https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026**

# XIX-XX əsrlərdə Qərbi Azərbaycanda ali pedaqoji təhsilin inkişafı

**Xanım Səfərli**

***Açar sözlər:*** *mədrəsə təhsili, milli kadrlar, peşəkar təhsil, təhsil sistemi, Qərbi Azərbaycan*
***Keywords:*** *madrasa education, national personnel, professional education, education system, Western Azerbaijan*

Qərbi Azərbaycanda ali təhsilin inkişafı ictimai-siyasi proseslər, təhsilin inkişafı və milli kadrların hazırlanması zərurəti ilə sıx bağlı idi. 20-ci əsrin əvvəllərinə qədər Qərbi Azərbaycanda müasir mənada klassik universitetlər mövcud deyildi, lakin ali və peşəkar təhsilin inkişafı üçün möhkəm təməllər qoyulmuşdu. Qərbi Azərbaycanda ilk ali təhsil müəssisələri mərhələli şəkildə – ənənəvi mədrəsələrdən pedaqoji kurslara, texniki məktəblərə və nəticədə ali pedaqoji institutlara qədər yaradıldı. Bu müəssisələr ali təhsil sisteminin inkişafında və bölgənin milli ziyalılarının yetişdirilməsində həlledici rol oynadı.

XIX əsrin 80-ci illərində İrəvan şəhərinin ictimai həyatında çox mühüm hadisələr baş vermişdir. 1881-ci il noyabrın 8-də Azərbaycanın təhsil tarixində izi qalan İrəvan Müəllimlər Seminariyası Rusiya İmperiyası Dövlət Şurasının 20 oktyabr 1880-ci il tarixli qərarına uyğun olaraq fəaliyyətə başlamışdır. Bu Seminariya Azərbaycan məktəbləri üçün müəllim kadrlarının hazırlanmasında mühüm rol oynamışdır.

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: safarlikhanim85@gmail.com

Tarixi Azərbaycan torpaqlarında qurulan Ermənistan Respublikasında 1918-ci ildə azərbaycanlılara qarşı bəslənən kin-küdurətlə, Qərbi Azərbaycanda, o cümlədən İrəvanda azərbaycanlılara qarşı erməni silahlı birləşmələrinin törətdikləri soyqırımla yanaşı, İrəvan Müəllimlər Seminariyası da təcavüzə məruz qalmış, daşnaklar hakimiyyətə gəldikdən iki ay sonra – 1918-ci il avqustun 6-da seminariyanın fəaliyyəti dayandırılmışdır. 37 illik fəaliyyəti dövründə İrəvan Müəllimlər Seminariyasının Azərbaycan məktəb və pedaqoji fikir tarixində xüsusi xidməti olmuş, təhsil ocağı öz üzərinə düşən vəzifəni şərəflə yerinə yetirmişdir.

İrəvan şəhəri bütün dövrlərdə Qərbi Azərbaycanda azərbaycanlıların mədəni mərkəzi olmuşdur. Firidun bəy Köçərli bu barədə yazırdı: "Şəhri-İrəvan keçmişdə mərkəzi-üləma, füzəla və şüəra olub". Bu şəhər görkəmli elm və mədəniyyət xadimlərinin beşiyi kimi tanınmış, Azərbaycan ədəbiyyatının inkişafında xidmətləri olmuş ədiblər bəxş etmişdir. "İrəvanda dünyanın hər yerindən sorağı gələn ziyalı nəsillər yetişmişdir. Onlardan XIX əsrin ikinci yarısında tanınan Mirbabayevlər, Bağırbəyovlar, Topçubaşovlar, Muğanlinskilər, Fərəcovlar və başqa nəsillərin nümayəndələri İrəvan quberniyasında nüfuz və mövqe sahibləri olmuşdur. İrəvan Qafqazda elmin, maarifin, mədəniyyətin ən çox inkişaf etdiyi mərkəzlərdən biri kimi tanınmışdır. Burada 1881-ci ildə müəllimlər seminariyası, 3 gimnaziya, bir qadın gimnaziyası, 2 pansionat fəaliyyət göstərmiş, teatr tamaşaları verilmişdir." XIX əsrin 80-ci illərində İrəvan şəhərinin ictimai həyatında çox mühüm hadisələr baş vermişdir. 1881-ci ildə İrəvan Kişi Gimnaziyası, İrəvan Müəllimlər Seminariyası, 1884-cü ildə İrəvan Qız Gimnaziyası fəaliyyətə başlamışdır.

Beləliklə, İrəvan xanlığı dönəmində İrəvan şəhərində mollaxanalar, mədrəsələr fəaliyyət göstərirdi. Burada dini təhsil alan

azərbaycanlılar gələcəkdə həmin dövrdə yeni tipli məktəblərdə təhsil almaları üçün, eləcə də yeni tipli məktəblərin açılmasında fəallıq göstərmişlər. XIX əsrin əvvəllərindən fəaliyyətə başlayan İrəvan progimnaziyası, ikisinifli ibtidai məktəb, İrəvan Kişi Gimnaziyası İrəvanda maarifçiliyin inkişafında, yüksək təhsil görmüş azərbaycanlıların yetişməsində xüsusi rol oynamışdır.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 67-71
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 67-71
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Həssas ailələrlə sosial işin təşkilində innovativ idarəetmə yanaşmalarının əhəmiyyəti

**Şükûfə Mirzəyeva**

***Açar sözlər:*** *həssas ailələr, risk qrupu, sosial iş, sosial xidmətlər, idarəetmə texnologiyaları, monitorinq, sosial müdaxilə, institusional əməkdaşlıq*
***Keywords:*** *vulnerable families, risk group, social work, social services, management technologies, monitoring, social intervention, institutional cooperation*

Müasir dövrdə ailə institutunun qarşılaşdığı sosial, iqtisadi və psixoloji problemlər cəmiyyətin dayanıqlı inkişafına təsir edən mühüm amillərdən biridir. İşsizlik, yoxsulluq, ailədaxili münaqişələr, sosial təcrid, miqrasiya, valideyn məsuliyyətinin zəifləməsi və asılılıq halları bəzi ailələrin normal sosial funksiyalarını yerinə yetirməsini çətinləşdirir. Azərbaycan Respublikasında ailənin dövlət himayəsində olması prinsipi sosial müdafiə tədbirlərinin ailə rifahı ilə birbaşa əlaqəsini göstərir. Risk vəziyyətində olan ailələrlə sosial iş yalnız maddi yardım göstərilməsi ilə məhdudlaşmamalıdır. Bu sahədə əsas məqsəd ailənin sosial adaptasiya imkanlarını gücləndirmək, onun daxilində yaranan problemlərin dərinləşməsinin qarşısını almaq və ailə üzvlərinin sosial müdafiəsini təmin etməkdir. Bu baxımdan sosial iş prosesinin səmərəli təşkili idarəetmə, planlaşdırma, koordinasiya, monitorinq və qiymətləndirmə mexanizmlərinin düzgün qurulmasını tələb edir.

Azərbaycan Turizm və Menecment Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: sukufeisayeva4@gmail.com

Həssas ailələrlə aparılan sosial işdə müasir idarəetmə texnologiyalarının tətbiqi problemin daha sistemli şəkildə həllinə imkan verir. Elektron məlumat bazalarının yaradılması, risklərin qiymətləndirilməsi, sosial xidmətlərin koordinasiyası, fərdi müdaxilə planlarının hazırlanması və nəticələrin izlənilməsi bu sahədə sosial işin keyfiyyətini yüksəldən əsas vasitələrdəndir. Belə yanaşma ailəyə göstərilən yardımın təsadüfi deyil, məqsədyönlü və davamlı olmasını təmin edir.

Bu baxımdan mövzunun aktuallığı həm sosial işin nəzəri əsaslarının, həm də praktik idarəetmə mexanizmlərinin birlikdə araşdırılması ilə bağlıdır. Risk vəziyyətində olan ailələrlə iş zamanı sosial xidmətlərin yalnız problemin nəticələrinə deyil, onun yaranma səbəblərinə də yönəldilməsi vacibdir. Ailənin sosial mühitinin, iqtisadi imkanlarının, psixoloji vəziyyətinin və institusional dəstəyə çıxış səviyyəsinin kompleks şəkildə qiymətləndirilməsi daha səmərəli müdaxilə imkanları yaradır. Ona görə də müasir idarəetmə yanaşmalarının sosial iş prosesinə inteqrasiyası bu sahədə həm preventiv tədbirlərin gücləndirilməsi, həm də ailələrin sosial dayanıqlığının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Risk qrupuna daxil olan ailələr müxtəlif səbəblərə görə sosial baxımdan həssas vəziyyətə düşürlər. Bu ailələr arasında aztəminatlı, natamam, çoxuşaqlı, miqrasiya yaşamış, ailədaxili zorakılıq riski ilə üzləşən, sosial nəzarəti zəif olan və psixoloji gərginlik şəraitində yaşayan ailələr xüsusi yer tutur. Hər bir ailənin problemi fərqli xarakter daşıdığı üçün sosial işin təşkili də fərdi yanaşma əsasında qurulmalıdır. Ənənəvi sosial yardım modelləri bir çox hallarda ailənin yalnız mövcud probleminə cavab verir. Lakin risk ailələrinin problemləri çox vaxt bir-biri ilə əlaqəli olur. Məsələn, maddi çətinlik psixoloji gərginliyə, valideyn məsuliyyətinin zəifləməsinə, uşaqların təhsildən yayınmasına və sosial təcridə səbəb ola bilər. Buna görə belə

ailələrlə işdə kompleks sosial müdaxilə modeli daha məqsədəuyğun hesab olunur.

Sosial işin effektiv təşkili üçün ilk növbədə ailənin ehtiyacları dəqiq qiymətləndirilməlidir. Bu mərhələdə sosial işçi ailənin iqtisadi vəziyyətini, psixoloji durumunu, hüquqi problemlərini, uşaqların sosial və təhsil ehtiyaclarını, həmçinin, ailənin mövcud dəstək imkanlarını təhlil edir. Qiymətləndirmə nəticəsində fərdi sosial müdaxilə planı hazırlanır və ailənin ehtiyaclarına uyğun xidmətlər müəyyən edilir. Müasir idarəetmə texnologiyaları bu prosesin daha operativ və şəffaf aparılmasına şərait yaradır. Vahid elektron qeydiyyat sistemləri ailə haqqında məlumatların sistemləşdirilməsinə, sosial xidmətlərin təkrarçılıq olmadan göstərilməsinə və müxtəlif qurumlar arasında məlumat mübadiləsinin gücləndirilməsinə imkan verir. Bu isə həm sosial işçinin fəaliyyətini asanlaşdırır, həm də ailəyə göstərilən xidmətlərin keyfiyyətini artırır.

Risk ailələri ilə sosial işin təşkilində institusional əməkdaşlıq mühüm əhəmiyyət daşıyır. Sosial müdafiə qurumları, təhsil müəssisələri, səhiyyə təşkilatları, hüquq-mühafizə orqanları, yerli icra strukturları və qeyri-hökumət təşkilatları birgə fəaliyyət göstərmədikdə sosial müdaxilənin nəticəsi zəifləyə bilər. Buna görə koordinasiya mexanizmlərinin yaradılması sosial xidmətlərin səmərəliliyini artıran əsas şərtlərdən biridir.

Bu sahədə monitorinq və qiymətləndirmə də xüsusi rol oynayır. Sosial xidmətlərin nəticəsi yalnız yardım alan ailələrin sayı ilə deyil, ailənin vəziyyətində baş verən real dəyişikliklərlə ölçülməlidir. Məsələn, uşaqların məktəb davamiyyətinin bərpası, ailədaxili münasibətlərin yaxşılaşması, məşğulluq imkanlarının genişlənməsi, psixoloji sabitliyin artması və sosial xidmətlərə çıxışın asanlaşması mühüm nəticə göstəriciləri kimi qəbul edilə bilər. Rəqəmsal texnologiyaların tətbiqi ilə yanaşı,

insan amili də diqqətdən kənarda qalmamalıdır. Sosial iş prosesində texnologiyalar sosial işçini əvəz edən vasitə kimi deyil, onun fəaliyyətini dəstəkləyən mexanizm kimi çıxış etməlidir. Ailə ilə birbaşa ünsiyyət, etimad münasibətlərinin qurulması, etik prinsiplərə əməl olunması və məxfilik sosial işin əsas şərtləri olaraq qalır.

Aparılan təhlil göstərir ki, risk qrupuna daxil olan ailələrlə sosial işin təşkili müasir sosial siyasətin mühüm istiqamətlərindən biridir. Belə ailələrin problemləri çoxşaxəli olduğu üçün onlarla iş yalnız maddi yardım və ya qısamüddətli müdaxilə ilə məhdudlaşdırıla bilməz. Sosial iş bu sahədə ailənin ehtiyaclarını müəyyənləşdirən, müdaxilə prosesini planlaşdıran, müxtəlif qurumların fəaliyyətini əlaqələndirən və nəticələri qiymətləndirən kompleks idarəetmə sistemi kimi çıxış etməlidir.

Müasir idarəetmə texnologiyalarının tətbiqi risk ailələri ilə sosial işin keyfiyyətini yüksəldir, xidmətlərin əlçatanlığını artırır və sosial müdaxilənin daha nəticəyönümlü olmasına şərait yaradır. Elektron məlumat bazaları, monitorinq sistemləri, fərdi müdaxilə planları, erkən xəbərdarlıq mexanizmləri və institusional koordinasiya bu sahənin inkişafında mühüm rol oynayır. Nəticə etibarilə, həssas ailələrlə sosial işin səmərəli təşkili ailə institutunun qorunmasına, uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, sosial risklərin azalmasına və cəmiyyətdə sosial sabitliyin təmin olunmasına xidmət edir. Bu səbəbdən sosial iş sahəsində innovativ idarəetmə mexanizmlərinin tətbiqi həm nəzəri, həm də praktik baxımdan mühüm əhəmiyyət daşıyır.

Risk qrupuna daxil olan ailələrlə sosial işin inkişafı üçün sosial xidmətlərin daha sistemli, çevik və əlaqələndirilmiş formada təşkili zəruridir. Bu istiqamətdə sosial işçilərin peşəkar hazırlığının artırılması, rəqəmsal idarəetmə vasitələrindən

istifadə, qurumlararası əməkdaşlığın gücləndirilməsi və xidmət nəticələrinin müntəzəm qiymətləndirilməsi əsas prioritetlər kimi çıxış edir. Müasir idarəetmə texnologiyalarına əsaslanan sosial iş modeli ailələrin yalnız mövcud problemlərinin həllinə deyil, həm də gələcək sosial risklərin qarşısının alınmasına xidmət edir.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 72-75
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 72-75
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Kinodramaturgiyada tarixi obrazların formalaşmasında memorial dinamika modeli

**Nəzrin Yusubova**

***Açar sözlər:*** *kinodramaturgiya, kollektiv yaddaş, tarixi obraz, memorial dinamika, kino semiotikası*
***Keywords:*** *film dramaturgy, collective memory, historical image, memorial dynamics, film semiotics*

Müasir humanitar elmlərdə tarix və yaddaş münasibətlərinin yenidən düşünülməsi kinodramaturgiyada tarixi şəxsiyyətlərin təqdimatına da yeni yanaşmalar formalaşdırmışdır. Kino yalnız tarixi hadisələri vizual şəkildə canlandıran vasitə deyil, həm də kollektiv yaddaşın formalaşmasında və transformasiyasında aktiv rol oynayan mədəni sistem kimi çıxış edir. Bu baxımdan tarixi obrazların ekranda təqdimatı artıq faktoloji dəqiqlik problemi ilə məhdudlaşmır, eyni zamanda, onların ideoloji, mədəni və estetik interpretasiyası məsələsini də əhatə edir. Kollektiv yaddaş nəzəriyyəsi göstərir ki, keçmişin qavranılması sabit deyil, sosial və mədəni kontekstlərdən asılı olaraq dəyişir. Bu dəyişkənlik kinodramaturgiyada tarixi obrazların formalaşmasına birbaşa təsir edir. Lakin mövcud yanaşmalar bu prosesi daha çox təsviri səviyyədə izah edir və onun dinamik strukturunu sistemli şəkildə modelləşdirmir. Bu səbəbdən təqdim olunan tezisdə kinodramaturgiyada tarixi obrazların formalaşmasını izah edən "Memorial Dinamika Modeli" irəli sürülür.

---

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: yusubova.nazrin@gmail.com

Model kollektiv yaddaşı transformasiya olunan proses kimi nəzərdən keçirərək tarixi obrazın yaranmasını ardıcıl mərhələlər sistemi daxilində izah etməyi hədəfləyir.

Tədqiqatın metodoloji əsasını narratologiya, kino semiotikası və kollektiv yaddaş nəzəriyyəsi təşkil edir. Nəzəri çərçivə aşağıdakı müəlliflərin ideyalarına əsaslanır:

- Moris Halbvaks – kollektiv yaddaşın sosial təbiəti;
- Yan Assmann – mədəni yaddaş və simvolik ötürülmə;
- Pol Rikör – yaddaş, tarix və narrativin əlaqəsi;
- Yuri Lotman – kino semiotikası və mədəni mətn anlayışı;
- Jil Delez – kino və zamanın fəlsəfəsi.

Bu yanaşmalar yaddaşı yalnız informasiya bazası deyil, transformasiya olunan semiotik və narrativ sistem kimi nəzərdən keçirməyə imkan verir.

*MEMORİAL DİNAMİKA MODELİ*

*1.Kristallaşma mərhələsi (strukturlaşdırılmış tarixi yaddaş).* Birinci mərhələ tarixi hadisənin sosial şüurda ilkin sabitləşməsi ilə xarakterizə olunur. Bu mərhələdə faktoloji materiallar sistemləşdirilir, rəsmi tarixşünaslıq formalaşır və tarixi şəxsiyyətlər ilkin interpretativ çərçivəyə daxil edilir. Bu mərhələnin əsas funksiyası hadisənin kollektiv yaddaşda strukturlaşdırılmasıdır. Burada tarix hələ ideoloji və ya estetik transformasiyaya məruz qalmır, lakin gələcək interpretasiyalar üçün referensial baza rolunu oynayır. Kino bu mərhələyə birbaşa deyil, dolayı şəkildə müraciət edir və onu ilkin material kimi qəbul edir.

*2.Emosional deformasiya mərhələsi (ideoloji-mədəni transformasiya).* İkinci mərhələ kollektiv yaddaşın ideoloji, emosional və mədəni təsirlər nəticəsində transformasiyasını ifadə edir. Bu mərhələdə tarixi faktlar selektiv şəkildə yenidən

təşkil olunur, bəzi elementlər gücləndirilir, digərləri isə marginalizasiya edilir və ya unudulur.

Bu proses nəticəsində tarixi şəxsiyyətlərin obrazları faktoloji neytrallıqdan uzaqlaşaraq mifoloji, ideoloji və emosional struktura çevrilir. Qəhrəmanlaşdırma, demonizasiya, travmatik yaddaşın gücləndirilməsi kimi mexanizmlər bu mərhələdə aktiv rol oynayır. Bu mərhələ kinodramaturgiya üçün əsas dramaturji materialın formalaşdığı mərhələdir, çünki konflikt, motivasiya və obraz psixologiyası məhz burada yaranır.

*3. Kinematoqrafik regenerasiya mərhələsi (vizual-narrativ yenidənqurma).* Son mərhələdə transformasiya olunmuş yaddaş kino dili vasitəsilə estetik və narrativ sistemə çevrilir. Bu prosesdə ssenari strukturu, montaj, vizual semiotika, musiqi və aktyor performansı birgə fəaliyyət göstərərək tarixi obrazın ekran modelini formalaşdırır. Bu mərhələdə yaddaş artıq referensial funksiyasını itirərək estetik reallıq istehsal edən sistemə çevrilir. Kino burada sadəcə təqdimat vasitəsi deyil, yaddaşın yenidən yaradıldığı semiotik məkan kimi çıxış edir.

*Modelin nəzəri mahiyyəti və elmi yeniliyi.* Memorial Dinamika Modeli kinodramaturgiyada tarixi obrazların formalaşmasını statik interpretasiya modeli kimi deyil, dinamik və prosesual yaddaş strukturu kimi izah edir. Bu modelin əsas elmi yeniliyi ondan ibarətdir ki, kollektiv yaddaş burada sabit struktur deyil, ardıcıl transformasiya mərhələlərindən ibarət sistem kimi nəzərdən keçirilir. Model göstərir ki, kino tarixi hadisələri təkrarlamır, onları kollektiv yaddaşın üç mərhələli transformasiyası vasitəsilə yenidən istehsal edir. Bu proses nəticəsində tarixi obrazlar obyektiv reallığın deyil, mədəni və ideoloji yaddaşın vizual-narrativ forması kimi meydana çıxır.

Beləliklə, kino mətnləri həm yaddaşın daşıyıcısı, həm də onun aktiv transformasiya mexanizmi kimi fəaliyyət göstərir. Memorial Dinamika Modeli kinodramaturgiyada tarixi obrazların formalaşmasını dinamik yaddaş prosesi kimi izah edir. Bu yanaşma kollektiv yaddaşı transformasiya olunan sistem kimi təqdim edir və kino mətnini bu prosesin vizual nəticəsi kimi müəyyənləşdirir.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 76-80
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 76-80
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Ailədaxili zorakılığın qarşısının alınmasında sosial iş texnologiyalarının rolu və idarəetmə mexanizmləri

**Nərmin Əzizli**

***Açar sözlər:*** *ailədaxili zorakılıq, sosial iş texnologiyaları, idarəetmə mexanizmləri, psixososial dəstək, krizis müdaxiləsi, sosial müdafiə, risk qrupları, institusional koordinasiya*
***Keywords:*** *domestic violence, social work technologies, management mechanisms, psychosocial support, crisis intervention, social protection, risk groups, institutional coordination*

Müasir dövrdə ailədaxili zorakılıq cəmiyyətin ən ciddi sosial problemlərindən biri kimi çıxış edir və onun təsirləri yalnız fərdlərlə məhdudlaşmayaraq, bütövlükdə sosial rifaha və ictimai sabitliyə mənfi təsir göstərir. Bu problem fiziki, psixoloji, iqtisadi və emosional zorakılıq formalarında təzahür edərək ailə institutunun zəifləməsinə, insan hüquqlarının pozulmasına və sosial gərginliyin artmasına səbəb olur. Xüsusilə qadınlar, uşaqlar və həssas qruplar bu cür zorakılığın əsas hədəfinə çevrilir ki, bu da məsələnin aktuallığını daha da artırır.

Ailədaxili zorakılığın qarşısının alınması yalnız hüquqi tədbirlərlə məhdudlaşmır, eyni zamanda, kompleks sosial yanaşma və peşəkar müdaxilə mexanizmlərinin tətbiqini tələb edir.

Azərbaycan Turizm və Menecment Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: nermin.e03@icloud.com

Bu baxımdan sosial iş sahəsi xüsusi əhəmiyyət kəsb edir. Sosial iş texnologiyaları zorakılıq hallarının erkən mərhələdə müəyyənləşdirilməsi, zərərçəkənlərin müdafiəsi, psixososial dəstəyin göstərilməsi və onların cəmiyyətə reinteqrasiyasının təmin olunmasında mühüm rol oynayır. Bu texnologiyalar vasitəsilə fərdi yanaşma prinsipi əsasında hər bir hadisəyə uyğun müdaxilə strategiyaları hazırlanır.

Digər tərəfdən, sosial iş texnologiyalarının effektiv tətbiqi onların düzgün idarə olunması ilə sıx bağlıdır. Planlaşdırma, koordinasiya, monitorinq və qiymətləndirmə kimi idarəetmə mexanizmləri sosial xidmətlərin keyfiyyətini və əlçatanlığını artırır. Dövlət qurumları, qeyri-hökumət təşkilatları və digər maraqlı tərəflər arasında əməkdaşlığın təmin olunması isə bu sahədə kompleks və davamlı nəticələrin əldə olunmasına imkan yaradır.

Beləliklə, ailədaxili zorakılığın qarşısının alınmasında sosial iş texnologiyalarının rolu və idarəetmə mexanizmlərinin təhlili həm nəzəri, həm də praktiki baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə aparılan tədqiqatlar problemin daha dərindən öyrənilməsinə və effektiv həll yollarının müəyyən edilməsinə şərait yaradır.

Bu kontekstdə qeyd etmək lazımdır ki, ailədaxili zorakılıqla mübarizə sistemli yanaşma tələb edən çoxşaxəli prosesdir. Problemin yalnız nəticələrinin aradan qaldırılması deyil, həm də onun yaranma səbəblərinin araşdırılması və profilaktik tədbirlərin həyata keçirilməsi əsas prioritetlərdən biri olmalıdır. Sosial-iqtisadi çətinliklər, ailədaxili münasibətlərdə qeyri-sağlam ünsiyyət, təhsil səviyyəsinin aşağı olması və gender bərabərsizliyi kimi amillər zorakılığın əsas səbəbləri sırasında çıxış edir. Bu səbəblərin aradan qaldırılması isə sosial iş

texnologiyalarının daha geniş və məqsədyönlü tətbiqini zəruri edir.

Eyni zamanda, erkən müdaxilə mexanizmlərinin formalaşdırılması xüsusi əhəmiyyət daşıyır. Sosial işçilər, psixoloqlar və hüquq-mühafizə orqanları arasında koordinasiyalı fəaliyyət zorakılıq riskinin vaxtında müəyyənləşdirilməsinə və qarşısının alınmasına imkan verir. Bu baxımdan məlumat mübadiləsi sistemlərinin yaradılması, vahid məlumat bazalarının formalaşdırılması və risk qruplarının identifikasiyası mühüm rol oynayır.

Zərərçəkən şəxslərin hüquqlarının qorunması və onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində institusional mexanizmlərin inkişafı vacibdir. Sığınacaqların fəaliyyətinin genişləndirilməsi, hüquqi yardım xidmətlərinin əlçatanlığının artırılması və psixoloji dəstək proqramlarının tətbiqi sosial iş texnologiyalarının effektivliyini artıran əsas amillərdəndir. Bu xidmətlərin keyfiyyətli təşkili isə peşəkar kadr hazırlığı və davamlı təlim proqramlarının həyata keçirilməsini tələb edir.

Digər tərəfdən, ictimai maarifləndirmə tədbirlərinin genişləndirilməsi də ailədaxili zorakılığın qarşısının alınmasında mühüm rol oynayır. Kütləvi informasiya vasitələri, təhsil müəssisələri və sosial platformalar vasitəsilə zorakılığın mənfi təsirləri barədə məlumatlandırma cəmiyyətdə bu problemə qarşı həssaslığın artırılmasına xidmət edir. Bu isə uzunmüddətli perspektivdə zorakılıq hallarının azalmasına və sağlam ailə münasibətlərinin formalaşmasına şərait yaradır.

Sosial iş texnologiyalarının kompleks və koordinasiyalı şəkildə tətbiqi, həmçinin, onların effektiv idarə olunması ailədaxili zorakılıqla mübarizədə əsas vasitələrdən biridir. Bu yanaşma

yalnız mövcud problemlərin həllinə deyil, həm də gələcəkdə bu kimi halların qarşısının alınmasına yönəlir.

Aparılan təhlil göstərir ki, ailədaxili zorakılıqla mübarizə kompleks və sistemli yanaşma tələb edən mühüm sosial məsələlərdən biridir. Bu problemin effektiv həlli yalnız hüquqi tədbirlərlə məhdudlaşmır, eyni zamanda, sosial iş texnologiyalarının geniş və məqsədyönlü tətbiqini zəruri edir. Sosial iş sahəsində istifadə olunan case management, krizis müdaxiləsi, psixososial dəstək və reabilitasiya proqramları zərərçəkənlərin müdafiəsi, onların sosial adaptasiyası və normal həyata reinteqrasiyası baxımından mühüm rol oynayır.

Tədqiqat nəticələri göstərir ki, sosial iş texnologiyalarının effektivliyi birbaşa onların düzgün idarə olunmasından asılıdır. Planlaşdırma, monitorinq, qiymətləndirmə və institusional koordinasiya mexanizmlərinin tətbiqi sosial xidmətlərin keyfiyyətini artırır və onların davamlılığını təmin edir. Dövlət qurumları, qeyri-hökumət təşkilatları və digər sosial institutlar arasında əməkdaşlığın gücləndirilməsi bu sahədə daha səmərəli nəticələrin əldə olunmasına imkan yaradır.

Eyni zamanda, ailədaxili zorakılığın qarşısının alınmasında profilaktik tədbirlərin rolu xüsusi vurğulanmalıdır. Erkən xəbərdarlıq sistemlərinin yaradılması, ictimai maarifləndirmə işlərinin genişləndirilməsi və risk qruplarının vaxtında müəyyənləşdirilməsi zorakılıq hallarının azalmasına mühüm töhfə verir. Bu istiqamətdə sosial işçilərin peşəkar hazırlığının artırılması və innovativ texnologiyaların tətbiqi də vacib amillər kimi çıxış edir.

Nəticə etibarilə, sosial iş texnologiyalarının sistemli tətbiqi və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi ailədaxili zorakılıqla mübarizədə effektiv və dayanıqlı nəticələrin əldə olunmasını təmin edir. Bu yanaşma həm fərdi səviyyədə zərərçəkənlərin rifahını yaxşılaşdırır, həm də cəmiyyətin ümumi sosial sabitliyinə və təhlükəsizliyinə müsbət təsir göstərir.

*Elm və Təhsil Tədqiqatları* **XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 81-85**
*Research in Science and Education* **XIV Republican Scientific Conference / 12 june 2026 / 81-85**
**https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026**

# Employee Motivation and Improvement of Personnel Management in Edu Company

**Aytaj Karimova**

***Keywords***: *employee motivation, personnel management, human resource management, education services, performance evaluation, training and development, Edu Company*
***Açar sözlər***: *işçi motivasiyası, personal idarəetməsi, insan resurslarının idarə edilməsi, təhsil xidmətləri, fəaliyyətin qiymətləndirilməsi, təlim və inkişaf, Edu Company*

Personnel management is one of the most important areas of modern organizational management. Earlier, it was mainly connected with hiring, documentation and discipline. In the modern economy, however, employees are considered a strategic resource, because their knowledge, motivation and behaviour directly affect competitiveness and organizational sustainability. The issue is especially relevant for education services. Education is a human-centred service, and its quality depends on teachers' professionalism, staff communication and employee responsibility. In Edu Company, employees influence the learning process, student satisfaction, relations with parents and the company's reputation. Therefore, personnel management should not be limited to administrative control; it should also support motivation and professional development. The purpose of this thesis is to analyse the role of employee motivation in improving personnel management in Edu Company.

Baku Business University, Master's student, Bau, Azerbaijan
E-mail: aytacmurad9@gmail.com

The main research question is how Edu Company can create a more effective and motivation-oriented personnel management system.

*Methodology and Theoretical Basis*. The study uses qualitative and descriptive research methods. Observation was applied to assess general HR practices in Edu Company. Theoretical analysis connected practical issues with modern human resource management concepts, while comparative assessment identified the gap between the current and desired level of HR development. Since the study is not based on a large-scale survey, its results should be understood as a practical organizational assessment.

The theoretical basis includes HRM approaches, motivation theories and performance management principles. Maslow's hierarchy of needs shows that employees need not only income, but also security, belonging, respect and self-development. For example, in Edu Company a teacher first needs a stable salary and safe working conditions; after that, the teacher needs a supportive team environment, respect from management, recognition for successful lessons and opportunities for professional growth. If these needs are ignored, salary alone may not create long-term motivation. Herzberg's two-factor theory also explains that salary prevents dissatisfaction, but stronger motivation is created by recognition, responsibility, achievement and professional growth.

*Analysis of Employee Motivation and Personnel Management in Edu Company*. The analysis shows that Edu Company has basic personnel management practices. Recruitment, work distribution, payment and general supervision are carried out. Nevertheless, the system needs more structure and continuity. Motivation is still mostly connected with salary, while

recognition, career planning and participation in decision-making are not used sufficiently. This may reduce employee loyalty and increase staff turnover.

Recruitment and training also require improvement. In education companies, employees should be selected not only according to diploma and experience, but also according to communication skills, teaching ability, digital competence and customer-oriented behaviour. Training should also be regular, because teaching methods, digital tools and student needs change rapidly.

Performance evaluation is one of the weakest areas. Employees should know what is expected from them and how their work is measured. Without clear indicators, evaluation may become subjective. A transparent KPI-based system can increase fairness and help employees understand their strengths and weaknesses.

**Table 1**
*Assessment of motivation and personnel management practices in Edu Company*

| HR area | Current score (1–5) | Desired score (1–5) | Gap | Improvement direction |
|---|---|---|---|---|
| Employee motivation | 2.0 | 4.5 | 2.5 | Balanced financial and non-financial incentives |
| Training and development | 2.0 | 4.0 | 2.0 | Annual training plan and professional development |
| Recruitment and selection | 2.5 | 4.0 | 1.5 | Structured interviews and competency assessment |

| | | | | |
|---|---|---|---|---|
| Performance evaluation | 1.5 | 4.5 | 3.0 | Clear KPIs and regular feedback |
| Internal communication | 2.5 | 4.0 | 1.5 | Meetings, surveys and feedback sessions |
| Average level | 2.1 | 4.2 | 2.1 | Integrated HR model |

**Note:** The scores are based on qualitative observation and practical assessment. A score of 1 indicates weak practice, while 5 indicates a strategically developed practice.

The table shows that the weakest area is performance evaluation, where the gap is 3.0 points. Employee motivation also requires serious improvement, with a 2.5-point gap. The average current level is 2.1 out of 5, which means that Edu Company should move from informal practices to a more integrated HR model.

First, Edu Company should develop a balanced motivation system. Salary and bonuses should be supported by recognition, career growth, professional autonomy and participation in decision-making. Employees who feel respected and valued are more likely to remain loyal to the company. Second, the company should introduce regular training programs. Annual training plans may include teaching methods, digital learning platforms, communication skills, customer service and conflict management. Training should be linked with the real needs of employees and the goals of the company.

Third, performance evaluation should be based on clear KPIs. For teachers, these indicators may include lesson quality, student progress, attendance, student feedback and professional development. For administrative staff, indicators may include service quality, accuracy and timely completion of tasks. The purpose of evaluation should be improvement, not punishment.

Finally, internal communication should be strengthened through regular meetings, feedback sessions and employee surveys. Strong communication supports trust, teamwork and organizational discipline. Employee motivation is one of the central elements of effective personnel management in Edu Company. The analysis shows that the company has basic HR practices, but these practices need more structure, transparency and strategic coordination. The main weaknesses are related to motivation, training, performance evaluation and internal communication. By applying a balanced motivation system, regular professional training, competency-based recruitment, KPI-based evaluation and stronger internal communication, Edu Company can increase employee satisfaction and organizational effectiveness. In the education services sector, motivated employees are the main condition for high-quality service and sustainable development.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 86-89
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 86-89
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

# Abşeronda Kaliforniya və tut qalxanlı yastıcalarının bioekologiyası və təsərrüfat əhəmiyyəti

**Elnurə Səfərova[1*], İradə Mustafayeva[2]**

***Açar sözlər:*** *Abşeron, Kaliforniya yastıcası, tut qalxanlı yastıca, bioekologiya, təsərrüfat*
***Keywords:*** *Absheron, California red scale, mulberry scale insect, bioecology, agricultural significance*

*Kaliforniya çanaqlı yastıcası- Diaspidiotus perniciosus Comst.* Kaliforniya çanaqlı yastıcası 1-1,5 mm uzunluğunda olub, girdə və yastı formadadır. Erkəklər 0,8- 0,9 mm uzunluqda olub, sarı-limon rəngində olmaqla, dişilərdən kiçikdirlər. Ön qanadları, bığcıqları və ayaqları yaxşı inkişaf etmişdir. Sürfələri dairəvi formada olub, sarı-limon rənglidir, ayaqları yoxdur, qanadları və gözləri tünd boz rəngdədir. Cavan sürfələr ilk qidalanma dövründə, nazik təbəqədən ibarət şirə ifraz edirlər. Bu şirə sonradan çanaqcığa çevrilir. Birinci yaşda erkək və dişi sürfələr bir-birindən fərqlənirlər. İkinci yaşdan etibarən erkəklərin çanağı uzanır, dişilərinki isə girdə vəziyyətdə qalır.

[1]Azərbaycan Dövlət Pedaqoji Universiteti, biologiya üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
[2]ARETN Canlı Sistemlərin Tədqiqi İnstitutu, biologiya üzrə fəlsəfə doktoru, , Bakı, Azərbaycan
[*]Məsul müəllif. E-poçt: seferovaelnure@mail.ru

Daxili karantin obyekti sayılan və Abşeron ərazisində kütləvi şəkildə yayılan Kaliforniya çanaqlı yastıcası polifaqdır. O, bir çox meyvə və meşə ağaclarının (alma, armud, gavalı, albalı, gilas, heyva, alça, şaftalı, ərik, badam, qoz, nar, əncir, yemişan, tut, naringi, limon, xurma, qızılağac, palıd və s.), o cümlədən, dekorativ ağac və kol bitkilərinin qorxulu zərərvericisi hesab olunur. Kaliforniya çanaqlı yastıcasının sürfələri və bəzən də yaşlı fərdi bəzək ağaclarının gövdəsinin qabığı və zoğları üzərində qışlayır. Qışlama qalxancıqlar altında gedir. Yazda, aprel ayının 10-dan 15-dək, orta günlük temperatur 12$^{o}$ C, havanın rütubəti 60% olduqda tumurcuqların şişməyə başladığı dövrlərdə, sürfələr qış yuxusundan çıxır və bəzək bitkiləri ilə qidalanmağa başlayaraq (20-25 gün) inkişaf edib yetkin dişilərə çevrilirlər. Yetkin dişilər 80-100 ədəd diri sürfə doğa bilirlər. Yeni doğulmuş sürfələr yaxşı inkişaf etmiş 3 cüt ayağa malik olurlar. Onlar çanaqlarının altından çıxaraq bitkinin kök hissəsinə, gövdəsinə, budaqlarına, zoğlarına, yarpaqlarına və meyvələrinə daraşıb, onların şirəsini sorurlar. Qısa müddətdə isə sürfənin ifraz etdiyi mayedən onların üzərində çanaq əmələ gəlir. Bu zaman sürfə hərəkətsiz olur. O, 10-12 gündən sonra birinci dəfə qabıq dəyişərək, ayaqlarını, bığcıqlarını və gözlərini itirir, ikinci dəfə qabıqdəyişmə yenə də 10-12 gün davam edir. Sonra yetkin dişilər əmələ gəlir. Dişilər mayalandıqdan sonra (yumurtalar onların bədənində yetişir) diri sürfələr doğulur.

Abşeronda ildə iki nəsil verir. Kaliforniya çanaqlı yastıcası intensiv çoxalan zərərvericidir. Onlar qısa müddətdə bitkilər üzərində külli miqdarda toplanıb, topalar əmələ gətirirlər. Belə koloniyaların sorduqları şirənin hesabına gövdə və budaqların qabıqları çatlayır, zoğlar eybəcərləşir, bəzi hallarda isə bitki tamamilə məhv ola bilir. Zərərvericinin zədələdiyi yarpaqlar tökülür, meyvələr isə qırmızı ləkələrlə örtülür. Müəyyən olunmuşdur ki, bəzək ağaclarının 2 balla yoluxması nəticəsində zoğların illik böyüməsi 25%, 3 balla yoluxma nəticəsində 50%

və 4 balla yoluxma nəticəsində 80% inkişafdan qalır və onların məhv olma təhlükəsi yaranır. Bundan başqa, meyvələrin zərərverici ilə yoluxmasına dair aparılan hesablamalar nəticəsində aydın olmuşdur ki, 1 balla yoluxmuş meyvələrin çəkisi 10%, 2 balla yoluxmuş meyvələrin çəkisi 25%, 3 balla yoluxmuşların çəkisi 50%, 4 balla yoluxanların çəkisi isə 60% aşağı düşür.

Tədqiqatlara əsasən, Abşeron ərazisində Kaliforniya çanaqlı yastıcasının sayının tənzimlənməsində 8 növ entomofaq (*Aphytis mutilaspidus L., Aph. Proclia Walk., Archenomus caucasicus Jasn., Coccophagus lycimnia Walk., Pseydophycus malinus Gahan., Chilocorus bipustulatus L., Chilocorus renipustulatus Scrib.,Holysia sedecimpunctata L.*) iştirak edir. Bunlardan iki növü (*Aphytis procilia Walk., Chilocorus bipustulatus L.*) daha çox fəaliyyət göstərirlər.

*Tut qalxanlı yastıcası- Pseudoulacaspis pentaqona Targ-Tozz.* Dünyanın əksər ölkələrində geniş yayılmış və karantin zərərverici hesab edilərək 54 fəsiləyə mənsub 200 növədək bitki ilə qidalanır. Abşeronda ağac və kol bitkilərindən başqa introduksiya olunmuş dekorativ bitkilərə də ciddi zərər verdiyi aşkar edilmişdir. Bununla yanaşı yerli tut, şaftalı, söyüd, akasiya bitkilərinə də ciddi zərər verir. Mərdəkan dendrarisində tut və söyüd bitkisi üzərində aparılan müşahidələrə əsasən, tut yastıcasının dişi fərdinin bədəni oval formada, sarı və ya açıq limon rəngində, uzunluğu 1,0-1,5 mm olmaqla çanağın altında yerləşir. Qanadları və ayaqları yoxdur. Dişi fərdin çanağı 1,5-2,5 mm uzunluqda, ağ-sarımtıl rəngdə olmaqla girdə və yastıdır. Erkək fərdi dişi fərddən fərqləndirən, onun sarı rəngdə bir cüt qanadlara malik olmasıdır. Bir dişi fərd yaşadığı müddətdə 150-dən 200-ə qədər yumurta qoya bilir. Yumurta oval formada olmaqla ağ, sarımtıl və bir də narıncı rəngdə, dişi fərdin bədəninin alt hissəsində olur. Yumurtadan çıxan birinci yaş sürfə

yaxşı inkişaf etmiş 3 cüt ayağa malik olur. Sürfələr çanağın altından çıxaraq bitkilərin gövdə, budaq və zoğlarına, yarpaq və meyvələrinə zərər verirlər.

Abşeron şəraitində dişi fərdlər, 8-14°C temperaturda aprel ayının əvvəli və ortalarında yumurta qoymağa başlayırlar. Yumurtaqoyma aprelin axırı, mayın əvvəlinədək davam edir. May ayının ortalarında yumurtalardan sürfələr çıxmağa başlayır və 12-14 gün davam edir. I yaş sürfələr mayın axırınadək qabıq dəyişərək III yaş dövrü keçirirlər. İkinci nəslin sürfələri isə iyul ayının axırları- avqustun əvvəlləri öz inkişaflarını başa vururlar. 10 gün müddətində ikinci nəslin yaşlı fərdləri görünməyə başlayır. Sentyabr ayının axırları oktyabrın əvvəllərində III nəslin yaşlı fərdləri müşahidə edilir. Mayalanmış dişilər qışlamaya gedirlər.

Beləliklə, Abşeron yarımadasında tut çanaqlı yastıcası 3 nəsil verir. Tut qalxanlı yastıcası intensiv çoxalan zərərvericidir. O, qısa müddətdə ağaclar üzərində külli miqdarda toplaşaraq koloniyalar əmələ gətirir. Bitkilərin zərərverici ilə yoluxması nəticəsində, ağacların yarpaqları tökülür, budaqları və zoğları quruyur, meyvələrin keyfiyyəti aşağı düşür. Aparılmış tədqiqatlara əsasən, Abşeron ərazisində tut qalxanlı yastıcasının sayının biotənzimlənməsində 5 növ entomofaqın fəaliyyət göstərdiyi aşkar edilmişdir. Onlar (*Cocophagus lucimnia Walk., Tetrastichus evonumellae Bche., Chilocorus bipustulatus L., Chrysopa carnea Steph., Rodalia cardinalis Muls.)* daha geniş fəaliyyət göstərməklə, birlikdə sahibin sayını aşağı sala bilirlər (25-30 %).

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 90-94
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 90-94
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# Qlobal istiləşmənin təsiri ilə insanların mərkəzi sinir sistemində baş verən dəyişikliklər

**Tahə İbrahimov**

***Açar sözlər:*** *qlobal istiləşmə, mərkəzi sinir sistemi, psixologiya, nitq, davranış*
***Keywords:*** *global warming, central nervous system, psychology, speech, behavior*

Əvvəlcədən qeyd etməliyəm ki, mövzu ilə əlaqədar olaraq heç vaxt hər hansı bir yazı hazırlamaq fikrində olmamışam. Lakin qarşılaşdığım və müşahidə etdiyim bir neçə hadisələrin səbəblərini qeyd etmək fikrinə düşdüm. Eyni zamanda, aydın oldu ki, bununla əlaqədar olaraq, həyəcan təbili çalmaq vaxtı çatmışdır. Bu yaxınlarda Mərkəzi bazarda kartof almaq üçün növbəyə dayanmışdım. Məndən irəlidə dayanmış cavan bir oğlan satıcıya 20 manat verdi. 2 kq kartof çəkməsini xahiş etdi. Satıcı 20 manatı alıb cibinə qoydu. 2 kq kartof çəkərək oğlana verdi. Oğlan satıcıdan pulun qalığını istədi. Satıcı isə cavabında dedi ki, mənə pul verməmisən. Mübahisə başladı. Cavan oğlan pulun qalığını tələb edirdi. Satıçı isə inadla pul almadığını bildirirdi.

Hadisəyə kənar şəxslər də qoşulmağa başladı. Münaqişəli vəziyyət yaranmışdı. Çox ciddi hadisələr baş verə bilərdi. Hadisəyə müdaxilə etmək qərarına gəldim. Mən görmüşdüm ki, cavan oğlan satıcıya verdiyi 20 manatın bir tərəfində qələmlə müxtəlif rəqəmlər yazılmışdır.

Ağsu, Azərbaycan
E-poçt: tahibrahimov287@gmail.com

Satıcıya dedim ki, oğlanın sənə verdiyi 20 manatın bir tərəfində qələmlə 1, 5, 8 rəqəmləri yazılmışdır. Bu zaman satıcı əsəbiliklə, hirslə cibindən bir topa pulu çıxardı. Həmin rəqəmlə yazılmış 20 manatı tapdı. Satıcı səhvini başa düşdü. Üzr istədi. Bildirdi ki, son vaxtlar yaddaşı tamamilə zəifləyib. Belə hadisələrlə tez-tez qarşılaşdığını özü etiraf etdi.

Müşahidələrə əsasən qeyd edə bilərəm ki, yaddaşın zəifləməsi çox insanlarda baş vermişdir. Bu zaman sual meydana çıxır. Yaddaşın zəifləməsinə səbəb nədir? Qeyd etməliyəm ki, sualın cavabı ilə əlaqədar olaraq insanlar arasında çox müxtəlif fikirlər söylənilir. Daha çox qidalanma, yoluxucu xəstəliklər əsas səbəb kimi göstərilir. Əslində isə səbəb tamamilə başqadır. Sualın cavabını izah etməzdən əvvəl qeyd etməliyəm ki, yaddaşın zəifləməsi ilə yanaşı, insanların psixologiyasında, nitqində, sözlərin tələffüzündə, xasiyyətlərində də dəyişikliklər baş verməkdədir. Mövzunun aktuallığını nəzərə alaraq, misallarla səbəbləri izah etməyə çalışacağam. Həmin dəyişikliklərin baş verməsi isə insanların həyatında çox ciddi problemlərin yaranmasına səbəb olur. Bu yaxınlarda taksi ilə Bakıya gedirdim. Yolda sərnişinlərdən bir nəfər sürücüdən xahiş etdi ki, 20 yanvar metrosunun yaxınlığında, dayanacaqda saxlasın. Sürücü isə maşını həmin dayanacaqda saxlamadı və metrodan uzaqlaşdı. Maşında olan bütün sərnişinlər sürücüdən dayanacaqda saxlamamasının səbəbini soruşdular. Sürücü cavabında bildirdi ki, son vaxtlar yaddaşı çox zəifləyib. Eşitmə qabiliyyəti də yox olub.

Aydın məsələdir ki, belə hadisələr zamanı sərnişinlər çox ciddi çətinliklərlə qarşılaşırlar. Çox vaxt mübahisəli və münaqişəli hadisələr baş verir. Televiziya kanallarında belə hadisələr haqqında ətraflı məlumatlar verilir. Hadisələrin səbəbləri ekspertlər tərəfindən təhlil olunur. İnanmaq olmur ki, elmin, iqtisadiyyatın çox güclü inkişaf etdiyi dövrümüzdə dünyada

dəhşətli hadisələr baş verir. Kriminal verilişlərin birində baş vermiş hadisənin müzakirəsi gedirdi. Cavan bir oğlan küçədə yanında övladı olan qadından siqaret istəmişdir. Qadın dərhal ərinə zəng edərək məlumat vermişdir. Əri başqa bir şəxslə hadisə yerinə gələrək həmin siqaret istəyən oğlana ağır bədən xəsarətləri yetirmişdir. Həmin cavan oğlan iki gün sonra xəstəxanada vəfat etmişdir. Məsələ burasındadır ki, ekspertlər hadisənin səbəblərini müxtəlif cür izah etdilər. Bəziləri cavan oğlanın pisixi xəstə olduğunu bildirdilər. Xəsarət yetirən şəxslərin təqsirkar olduğunu bildirənlər də oldu. Müşahidələrə əsasən qeyd edə bilərəm ki, bu və ya buna oxşar hadisələr tez-tez baş verir. Mübahisəli və münaqişəli hadisələrdən özünü qorumaq çox çətinləşib.

Bununla əlaqədar olaraq, qarşılaşdığım başqa bir hadisə haqqında, qısa da olsa, məlumat vermək istəyirəm. Aydın məsələdir ki, bir neçə nəfər söhbət edərsə, baş verən hadisələr müzakirə olunur. Hər bir insan öz düşüncəsinə uyğun olaraq fikirlərini söyləyir. Tanışlarımdan biri söhbət zamanı dedi ki, mən həmişə mübahisəli məsələlərdən uzaq olmağa çalışıram. Ona görə də mənim başıma heç vaxt münaqişəli hadisələr gələ bilməz. Tanışım bu sözləri söyləyəndə özümü saxlaya bilmədim. Ona dedim ki, sənin başına elə bir hadisə gələ bilər ki, hətta həyatını itirmək təhlükəsi ilə qarşılaşarsan. Vəziyyətdən çıxış yolu tapa bilməzsən.

Söhbətimizdən bir neçə gün keçdi. Təsadüfən həmin tanışımla qarşılaşdım. Hiss etdim ki, çox əsəbidir. Bikef və qanı qaradır. Ondan soruşdum ki, nə üçün bu vəziyyətə düşmüsən? Cavab verdi ki, dərdim çox böyükdür. Vəziyyətdən çıxış yolu tapa bilmirəm. Heç kim mənə kömək edə bilməz. Özümə qəsd etmək istəyirəm. Doğrusu, onun bu sözləri mənə mənfi təsir göstərdi. Soruşdum ki, hansı hadisə ilə qarşılaşmısan? Sualıma cavab vermək istəmədi. Təkid etdim. Nəhayət cavab verdi ki, öz

doğma qardaşım ilə aramda torpaq üstündə mübahisəmiz düşüb. Qardaşım torpağımı əlimdən alıb. Bu vaxta qədər həmin torpaqdan birlikdə istifadə edirdik. İndi isə o, mənə deyir ki, sənin burada torpağın yoxdur. Artıq münaqişə çox böyüyüb. Hüquq-mühafizə orqanları münaqişəni həll etmək istəyir. Qardaşım isə bu mübahisənin qanuni yolla həll olunmasını istəmir. Məni hər gün hədələyir. Vəziyyətdən çıxış yolu tapa bilmirəm. Bütün dolanışığım torpaqdan çıxır. Qanuni yolla mənə verilmiş torpağımı nə üçün qardaşıma verməliyəm?

Mən başa düşdüm ki, vəziyyət çox ciddidir. Tərəflərdən hər hansı birinin geri çəkilməsi mümkün deyil. Ona görə də hər vaxt çox ağır cinayət hadisəsi baş verə bilər. Həmsöhbətimdən soruşdum ki, həmin ərazidə qardaşının torpağı vardımı? Cavab verdi ki, torpaqlarımız bitişikdir. Heç vaxt mənim bir sözümü iki eləməzdi. 2-3 aydır ki, xasiyyəti tamamilə dəyişib. Yay ayları başlayandan bəri davranışı və sağlamlığı da normal deyil. Artıq bu söhbətimizdən sonra mənə aydın idi ki, münaqişənin səbəbləri hansılardır. Tanışıma dedim ki, yay ayları qurtarana qədər həmin torpaq sahəsinə getməsin. Yay ayları qurtarandan sonra qardaşının xasiyyəti tamamilə dəyişəçəkdir. Səhvlərini başa düşəcəkdir, üzr istəyəcəkdir.

Tanışım mənim söhbətimə inanmadı. Bir az əsəbləşdi. Cavab verdi ki, mən öz torpağımdan heç vaxt imtina etmərəm və uzaqlaşıb getdi.  Yay ayları qurtardı. Noyabrın ortaları idi. Tanışım məni axtarıb tapdı. Dedi ki, qardaşım tamamilə dəyişib. Səhvlərini etiraf etdi. Üzr istədi. Torpağı da iki hissəyə ayırmışıq. Hər birimiz öz torpağımızdan istifadə edirik. Hətta bir-birimizə kömək də edirik.

Belə hadisələr çox yerdə baş verir. Səbəbləri haqqında isə çox müxtəlif fikirlər söylənilir. Mən isə yalnız öz fikirlərimi izah etməyə çalışacağam. Məlumdur ki, insanın xasiyyəti, davranışı,

hissetmə qabiliyyəti, düşüncəsi daha çox mərkəzi sinir sistemi ilə əlaqədardır. Baş beyin, onun yarımkürələri, mərkəzləri bizim həyatımızda daha çox rol oynayır. İnsanın baş beyni çox inkişaf etmişdir. Sinir sisteminin əsasını neyron hüceyrələri təşkil edir. Neyronlar ətraf aləmin təsirlərinə çox həssasdır. Mühit amillərinin təsiri ilə neyronlarda dəyişikliklər baş verir.

Havanın temperaturu 37-38$^{0}$-yə qədər olduqda neyronlar öz funksiyalarını normal yerinə yetirir. Məlumdur ki, Qlobal istiləşmə nəticəsində temperatur 40-41$^{0}$-yə çatır. Hər il hərarət də yüksəlir. Bunların nəticəsində neyronların əsasını təşkil edən zülal maddələrinin quruluşunda dəyişikliklər baş verir. Bu da neyronların bütün funksiyalarının pozulmasına səbəb olur. Neyronların quruluşu mürəkkəbdir. Kimyəvi tərkibinə görə çox müxtəlif maddələrdən təşkil olunmuşdur. Karbon, hidrogen, oksigen, fosfor və başqa elementlərin atomlarının rabitələri nəticəsində neyronlar öz funksiyalarını yerinə yetirirlər. Öz təcrübələrimə əsasən qeyd edə bilərəm ki, hidrogen atomları neyronların həyatında daha çox rol oynayır. Temperatur 39-40$^{0}$-yə çatdıqda hidrogen atomlarının başqa elementlərlə kimyəvi rabitəsi pozulur. Bu da bütün maddələrin quruluşuna, kimyəvi tərkibinə və yerinə yetirdiyi fünksiyalara mənfi təsir göstərir. Bütün bunlar çox mürəkkəb fiziki-kimyəvi proseslərdir. İzahı isə ayrı mövzudur.

Mərkəzi sinir sistemi pozulmuş insanlar əsəbi olurlar. Onlar fikirləşmədən, düşünmədən hər çür hadisələr törədirlər. Onların insanlıq hissiyyatı ya zəifləyir, ya da tamamilə yox olur. Çox təəssüflər olsun ki, bütün dünyada belə insanların sayı getdikcə çoxalır. Qlobal istiləşmənin təsirlərini azaltmaq, insanlıq hissiyyatını qorumaq mümkündür.

*Elm və Təhsil Tədqiqatları* XIV Respublika Elmi Konfransı / 12 iyun 2026/ 95-99
*Research in Science and Education* XIV Republican Scientific Conference / 12 june 2026 / 95-99
https://doi.org/10.36719/2789-6919/XIV/RK/ET/2026

# TEXNİKA ELMLƏRİ

# TECHNICAL SCIENCES

## Bank sektorunda müştəri seqmentasiyası: Data Mining metodlarının tətbiqi və təhlili

**Banu Mehdizadə**

***Açar sözlər:*** *müştəri seqmentasiyası, maşın öyrənməsi, klasterləşdirmə alqoritmləri, K-Means, proqnozlaşdırma modelləri, nəzarətsiz öyrənmə, bankçılıq analitikası*
***Keywords:*** *customer segmentation, machine learning, clustering algorithms, K-Means, predictive modeling, unsupervised learning, banking analytics*

Müştəri seqmentasiyası müştərilərin oxşar davranış və xüsusiyyətlərinə görə qruplaşdırılması ilə marketinq strategiyalarının optimallaşdırılmasına, xidmət keyfiyyətinin artırılmasına və müştəri itkisinin (churn) azaldılmasına xidmət edir. Bu tədqiqatda VR Bank-ın yüksək ölçülü verilənlər dəsti əsasında K-Means, DBSCAN, Agglomerative Hierarchical və K-Prototip klasterləşdirmə alqoritmlərinin effektivliyi Python mühitində qiymətləndirilmişdir. Performans göstəricilərinə görə ən yüksək nəticəni nümayiş etdirən K-Means alqoritmi əsasında Random Forest modeli qurulmuşdur. Sözügedən proqnozlaşdırma modeli yeni müştərilərin avtomatik seqmentləşdirilməsinə və onlara fərdiləşdirilmiş məhsul təkliflərinin təqdim olunmasına imkan verir.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: mehdizadbanu@gmail.com

Müasir bazar şəraitində rəqabət üstünlüyünün qorunması müştəri tələblərinin dəqiq proqnozlaşdırılmasından və xidmət keyfiyyətinin yüksəldilməsindən asılıdır. İstehlakçı gözləntilərinin qarşılanmaması müştəri itkisinə və gəlir azalmasına gətirib çıxardığı üçün, şirkətlər mövcud məlumat bazalarından istifadə edərək proaktiv yanaşmalar formalaşdırmalıdırlar. Yeni müştəri cəlbetmə xərclərinin yüksək olması səbəbindən, xüsusilə bankçılıq və telekommunikasiya sektorlarında müştəri loyallığının qorunması strateji prioritet daşıyır. Bu kontekstdə toplanmış müştəri məlumatları biznes analitikləri üçün strateji resurs kimi çıxış edir və istehlakçı davranış tendensiyalarına uyğun fərdiləşdirilmiş xidmət təkliflərinin hazırlanmasına imkan verir. Nəticə etibarilə, yalnız yeni müştəri qazanmağa deyil, mövcud bazanın təhlilinə yönəlmiş strategiyalar biznesin davamlı inkişafı üçün daha səmərəli hesab olunur.

Əsasən, MƏİ sistemləri, ümumiyyətlə, dörd əsas sahədən ibarətdir: - Müştərilərin Tanınması; -Müştərilərlə Əlaqə Qurulması; - Müştərilərin Saxlanılması; - Müştəri Münasibətlərinin Genişləndirilməsi. Bu təsnifata görə, müştəri seqmentasiyası ilkin mərhələdir və müştərinin tanınmasına fokuslanır. Lakin marketinq tədqiqatçıları müştəri seqmentasiyasının MƏİ-nin bütün mərhələlərinə nüfuz etdiyini başa düşürlər; bu yalnız tanınma ilə başlanmır, həmçinin, müştəri inkişafını da əhatə edir. Daha da irəliləyərək, bizneslər müştəriləri onların rentabellik səviyyələrinə əsasən seqmentləşdirə bilərlər. Məsələn, bir loyallıq proqramı, ən dəyərli müştəri seqmentləri üçün xüsusi olaraq dizayn edilə bilər ki, onların davamlı şəkildə müştəri olaraq qalması təmin edilsin. Əksinə, başqa bir yanaşma daha az rentabelli müştəri seqmentlərinə ayrılan resursları azaldaraq, bu seqmentlərin biznes resurslarını əslində boşuna sərf edən seqmentlər olduğunu nəzərə ala bilər.

Mövcud rəqabətli biznes mühitində təşkilatların üstünlük qazanmaq üçün mövcud resurs və güclü tərəflərindən səmərəli şəkildə istifadə etməsi həyati əhəmiyyət daşıyır. Bu istiqamətdə mühüm addımlardan biri, müştəri xüsusiyyətlərinin dərindən öyrənilməsidir; toplanmış məlumatlar məhsul inkişafı və marketinq fəaliyyətlərinin əsasını təşkil edir. Bu yanaşma bizneslərə müəyyən məhsulları uyğun müştəri bazası ilə effektli şəkildə əlaqələndirməyə imkan verir, nəticədə müştəri məmnuniyyətini artırır və brendə sədaqət yaradır. Hazırda diqqət yalnız məhsul mərkəzli deyil, müştəriyönümlü strategiyalara yönəlməlidir. Şirkətlər öz biznes strategiyalarını yalnız təklif etdikləri məhsullara əsaslanaraq qurmaqla kifayətlənməməli, eyni zamanda, bu strategiyaları müştərilərin üstünlükləri və ehtiyaclarına uyğun şəkildə formalaşdırmalıdırlar.

Bank sektorunda müştəri məlumatlarının eksponensial artımı, xidmətlərin optimallaşdırılması və rəqabət üstünlüyünün qorunması üçün həm bir çağırış, həm də bir imkan kimi çıxış edir. Müştəri davranışını təhlil etmək üçün ənənəvi metodlar müasir bank məlumatlarının mürəkkəbliyini və müxtəlifliyini tam əhatə etməkdə aciz qalır. Bu problemi aradan qaldırmaq üçün effektiv yanaşmalardan biri obyektlərin seqmentasiyasıdır və bu da məlumat çıxarma (data mining) texnikaları vasitəsilə ortaq xüsusiyyətlərə və davranış nümunələrinə əsaslanaraq müştəri və ya əməliyyatların qruplara bölünməsini nəzərdə tutur.

Əsas problem, bank mühitlərində tez-tez rast gəlinən yüksək ölçülü, heterogen və çox zaman strukturlaşdırılmamış məlumatları idarə edə bilən möhkəm bir seqmentasiya çərçivəsinin inkişaf etdirilməsindədir. Məqsəd, K-Means, DBSCAN və ya Hierarxik Klasterləşmə kimi nəzarətsiz maşın öyrənməsi alqoritmlərini tətbiq edərək müştəriləri mənalı klasterlərə ayırmaqdır. Bu seqmentlər sonradan müştəri təcrübəsinin artırılması, müştəri itkisinin proqnozlaşdırılması,

fərdiləşdirilmiş marketinq strategiyalarının hazırlanması və risklərin idarə olunması proseslərinin təkmilləşdirilməsi kimi məqsədlər üçün istifadə oluna bilər.

Bu tədqiqatın məqsədləri aşağıdakılardır:

- -Bank məlumatları üçün uyğunlaşdırılmış effektiv seqmentasiya modelinin hazırlanması;
- -Müxtəlif klasterləşmə alqoritmlərinin performansının qiymətləndirilməsi;
- -Həqiqi müştəri məlumatları əsasında aparılan tətbiqlərlə seqmentasiyanın praktik faydalarının nümayiş etdirilməsi. Bu məqsədlərə çatmaqla, banklar məlumat əsaslı qərarvermə və müştəriyönümlü xidmət modellərinə keçid edə bilər və bu da nəticə etibarilə mənfəətliliyin və müştəri məmnuniyyətinin artırılmasına xidmət edir.

Bank sektorunda obyektlərin seqmentasiyasının tətbiqi üçün maşın öyrənməsi üsullarından istifadə etməklə sistemli bir yanaşma tələb olunur. Effektiv bir həllin yaradılması üçün əsas mərhələlər aşağıdakılardır:
1. Məlumatların Toplanması və Birləşdirilməsi: Müştəri əməliyyat tarixçələri, demoqrafik göstəricilər, hesab fəaliyyətləri, məhsul istifadəsi və Müştəri Münasibətlərinin İdarəolunması (CRM) sistemlərindən məlumatlar toplanır. Strukturlaşdırılmış və strukturlaşdırılmamış məlumatlar mərkəzləşdirilmiş verilənlər bazasında birləşdirilərək ilkin emal üçün hazır vəziyyətə gətirilir.

2. Klasterləşdirmə Alqoritmlərinin Seçimi: K-Orta Klasterləşdirmə (K-Means): Böyük həcmli, sayısal məlumatlar üçün uyğundur; dəqiq və ayrılmış klasterlər yaradır. DBSCAN: Aykırıları aşkar etmək və qeyri-standart formaya malik klasterlər yaratmaq üçün istifadə olunur. Aqqlomorativ (Hierarxik) Klasterləşdirmə: Müştəri məlumatlarına iyerarxik

baxış təklif edən yuvalanmış qruplar yaradır. K-Prototypes: Qarışıq tipli məlumatlarla (rəqəmsal və kateqorial) işləməyə uyğun alqoritmdir, bank məlumatları üçün çox uyğundur. Qaus Qarışıq Modelləri (GMM): Məlumatların bir neçə Qaus paylanmasından ibarət olduğu fərz edildikdə istifadə olunur.

3. Biznes Tətbiqləri: Müxtəlif müştəri seqmentləri üçün hədəfli marketinq kampaniyaları həyata keçirilir. Dəyərli müştərilər üçün loyallıq proqramları tətbiq olunur. Müştəri itkisinin proqnozlaşdırılması və saxlama strategiyaları hazırlanır. Maliyyə məhsullarının cross-sell və upsell strategiyaları optimallaşdırılır.

Tədqiqatda bank sektoruna aid verilənlər dəsti nəzarətsiz maşın öyrənməsi metodları ilə analiz edilmişdir. İlkin emal və standartlaşdırmadan sonra K-Means, Agglomerative və DBSCAN alqoritmlərinin performansı Davies–Bouldin, Siluet və Calinski–Harabasz indeksləri ilə qiymətləndirilmişdir. Nəticələr, ən yüksək effektivliyi K-Means alqoritminin nümayiş etdirdiyini və yeddi müştəri seqmenti formalaşdırdığını göstərmişdir. Kateqoriyalı dəyişənlər üçün K-Prototip metodu tətbiq edilərək əlavə beş klaster müəyyən edilmişdir. Random Forest modeli vasitəsilə aparılan atribut əhəmiyyətinin təhlili "üzvlüklərin sayı"nın seqmentasiyada həlledici, "müddətli əmanətlər"in isə minimum əhəmiyyətə malik olduğunu sübut etmişdir. Həmçinin, maaşın müştəri seqmentasiyasında mühüm, balansın isə nisbətən aşağı əhəmiyyətli atribut olduğu təsdiqlənmişdir.

# İÇİNDƏKİLƏR
## CONTENTS

# HUMANİTAR VƏ SOSİAL ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Faidə İsayeva**
Ekvivalentlik anlayışının formalaşması...................................... 9
**Fidan Qafulova**
Azərbaycanda davamlı inkişafın təmin olunmasında
ekoloji təhsil problemləri.......................................................... 13
**Arzu Şabanova**
Kənd təsərrüfatında investisiya risklərinin idarə edilməsi ...... 18
**Züleyxa Zeynalova**
Azərbaycan coğrafi əfsanələrinin UNESCO-nun
qeyri-maddi mədəni irs kontekstində öyrənilməsi................... 21
**Ləman Əsgərli**
Xarici dilin tədrisində interaktiv təlim
texnologiyalarının rolu............................................................. 26
**Yunus Hacızadə**
Musiqi menecmentin idarəetmə modelləri və onların
tətbiqi problemləri..................................................................... 30
**Səma Bədəlli**
Gender bərabərliyinin təşviqində sosial iş
texnologiyalarının tətbiqi.......................................................... 35
**İlahə Əsgərli**
İngilis dilinin tədrisində istifadə olunan müasir texnoloji
vasitələr..................................................................................... 38
**Minaxanım Abdullayeva**
Yeni media, rəqəmsal animasiya və qlobal
bazara inteqrasiya..................................................................... 42

**Ruhan Nəcəfli**
Qida sənayesində keyfiyyət təhlükəsizliyi və ekspertiza sistemlərinin müasir inkişaf mexanizmləri................................ 46
**Leyla Cəfərzadə**
İroniya və sarkazmın siyasi kommunikasiya vasitəsi kimi rolu............................................................................ 51
**Zöhrə Yusubova**
Kinodramaturgiyada “anti-narrativ”in sistemləşdirilməsi: fransız " Yeni Dalğa" sında alternativ dramaturji model ......55
**Aysel Əlizadə**
Sosial xidmətlərin idarə edilməsində innovativ texnologiyaların tətbiqi: Azərbaycan təcrübəsi və perspektivlər ................................................................. 58
**Xanım Səfərli**
XIX-XX əsrlərdə Qərbi Azərbaycanda ali pedaqoji təhsilin inkişafı .................................................................. 64
**Şükûfə Mirzəyeva**
Həssas ailələrlə sosial işin təşkilində innovativ idarəetmə yanaşmalarının əhəmiyyəti......................................................... 67
**Nəzrin Yusubova**
Kinodramaturgiyada tarixi obrazların formalaşmasında memorial dinamika modeli........................................................ 72
**Nərmin Əzizli**
Ailədaxili zorakılığın qarşısının alınmasında sosial iş texnologiyalarının rolu və idarəetmə mexanizmləri ................ 76
**Aytaj Karimova**
Employee Motivation and Improvement of Personnel Management in Edu Company.................................................. 81

# TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Elnurə Səfərova, İradə Mustafayeva**
Abşeronda Kaliforniya və tut qalxanlı yastıcalarının bioekologiyası və təsərrüfat əhəmiyyəti ................................... 86
**Tahə İbrahimov**
Qlobal istiləşmənin təsiri ilə insanların mərkəzi sinir sistemində baş verən dəyişikliklər90

# TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Banu Mehdizadə**
Bank sektorunda müştəri seqmentasiyası: Data Mining metodlarının tətbiqi və təhlili .............................. 95

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Yasamal r-nu, A.M.Şərifzadə 19
Tel.: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: tedqiqat.rek@aem.az

**Editorial address**
AZ1073, Baku city,
Yasamal dist., A.M.Sharifzade 19
Phone: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: tedqiqat.rek@aem.az

İmzalandı: 05.06.2026
Onlayn çap: 12.06.2026
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 6,5 ç.v.
Sifariş: 183

aem.az saytında çap edilmişdir.
Ünvan: Bakı şəh., Yasamal r-nu,
A.M.Şərifzadə 19
Tel.: +994 50 209 59 68
e-mail:zengezurda1868@mail.ru

Signed: 05.06.2026
Online publication: 12.06.2026
Format: 60/84, 1/16
Stock issuance: 6,5 p.s.
Order: 183

It has been published on aem.az
Address: Baku city, Yasamal dist.,
A.M.Sharifzade 19
Phone: +994 50 209 59 68
e-mail: zengezurda1868@mail.ru